*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*
**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU**

# İNNOVASİYA FƏALİYYƏTİ HAQQINDA BİR SIRA STİMULLAŞDIRICI MEXANİZMLƏR



**Bakı - 2017**

*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*

**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU**

# İNNOVASİYA FƏALİYYƏTİ HAQQINDA BİR SIRA STİMULLAŞDIRICI MEXANİZMLƏR

**Bakı - 2017**

**Tədqiqat qrupu**

**Rəhbər:** i.e.d. Arzu Hüseynova
**İcraçılar:** Aynurə İsmayılova, t.e.n. Vəfa Rzayeva, i.ü.f.d. Fərhad Mikayılov, i.ü.f.d. Arzu Süleymanov, Təranə Salıfova, Əlvan Süleymanova, Nərminə Quliyeva, Əminə Yaqublu, Fatma İmaməliyeva, İzzət Salmanova, Aliya Şabanova, Dilrufə Hüseynova, Xalid Cavadov, Afaq Qasımova, Hüseyn Məmmədov, Xanım Rzayeva

**Redaktor:** Sayalı Abbasəliyeva

İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər. Bakı, 2017, 36 s.

*Kitab Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş **"Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"**nin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən işlənilmişdir.*

***© İİETİ, Bakı, 2017***

## MÜNDƏRİCAT

1. Yüksək texnologiyalar parklarinda və biznes inkubatorlarında innovasiya fəaliyyətinin stimullaşdirilmasi ... 4

2. Həm dövlət qurumlarının nəzdində, həm də rezidentlər tərəfindən yaradılan yüksək texnologiyalar parklarında və biznes inkubatorlarında fəaliyyət göstərən şirkətlərə güzəştlərin tətbiq edilməsi ... 14

3. Dövlət innovasiya siyasətini müəyyənləşdirən və icra edən əlaqələndirici qurumların fəaliyyətinin koordinasiyası ... 16

4. Vençur kapitallaşması fəaliyyətinin aparılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi ... 17

5. İnnovasiyayönümlü startap layihələrinin maliyyələşdirilməsi üçün vençur fondlarının, eləcə də xarici investorların cəlb edilməsi üçün təşviqedici tədbirlərin həyata keçirilməsi ... 25

Nəticə ... 33

## 1. YÜKSƏK TEXNOLOGİYALAR PARKLARINDA VƏ BİZNES İNKUBATORLARINDA İNNOVASİYA FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI

Azərbaycan Respublikası iqlim şəraiti və ehtiyatları ilə tanınır. Respublikanın çox istiqamətli iqtisadiyyatı bir çox sahələrdə innovasiya texnologiyalarının inkişafına imkan verir. Bu gün Azərbaycanın enerji tutumunun azaldılması və ekoloji istehsalatın artırılması məsələlərində texnoloji geriləməsi zamanı iqtisadiyyatın yeni yüksək texnoloji avadanlıq və əqli işləmələrə əasaslanan innovasiya yönümlü iqtisadiyyata yönəldilməsi çox aktualdır. İnkişaf etmiş dövlətlərdə də rəqabət qabiliyyətliliyin əsas amili innovasiyadır (innovasiya - yeni elmi biliklərin, məhsulların, texnologiyaların, xidmətlərin, avadanlıqların, kadrların ixtisaslaşdırılması, istehsalatın təşkilidir).

Texnologiyaların təkmilləşdirilməsi pul vasitələrinə qənaət etməyə, maliyyə və qapalı texnoloji zəncirin formalaşmasına imkan yaradır. Bu da təbii ehtiyatların səmərəli mənimsənilməsinə, istehsalatın rəqabətqabiliyyətinin artırılmasına böyük imkanlar yaradır.

İstehsalatın (sənayenin) qapalı dövriyyəsi mexanizminin həyata keçməsinin nəticəsi infrastrukturun inkişafı, işsizliyin artımının azalmasına, vergi ödənişlərinin dəyişilməsinə və investisiya cəlb ediciliyinə gətirir.

Beləliklə, belə yanaşma bir tərəfdən rəqabət üstünlüklərinin istifadəsinə, digər tərəfdən isə ölkə iqtisadiyyatında innovasiya aktivliyinin stimullaşdırılmasına yönəldilir. Bu da yeni innovasiya yönümlü iqtisadiyyatın yaradılmasına imkan verir.

Bu gün Azərbaycanda innovasiya sisteminin yaradılması üzrə aktiv işlər gedir. Bu isə ölkənin intensiv inkişafını stimullaşdıracaq və innovasiya inkişafına gətirəcək. Bu sahədə əsas güc Mili innovasiya sisteminin (MİS) elementlərinin inkişafına, istehsal sahələrinin artırılmasına, regionların innovativ inkişafına və innovasiyaya tələbin artırılmasına yönəldilir.

Azərbaycanın sosial iqtisadi inkişafında müstəqillik illərində çox işlər görülmüşdür. 2014-cü il Azərbaycanda "Sənaye ili" elan edilmişdir və 230-dan çox sənaye müəssisəsi yaradılmışdır. 123 min yeni iş yeri açılmışdır ki, onlardan təxminən 100 mini daimi iş yeridir.

Eyni zamanda, həyata keçirilən tədbirlər nəticəsində müasir infrastruktur təmin olunmuş, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə çoxsaylı layihələr icra edilmiş, biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılmış, sahibkarlığın inkişafında mühüm uğurlara nail olunmuş, həmçinin regionların inkişafı strategiyası plana uyğun olaraq həyata keçirilməkdədir. Bütün bunlar isə dayanıqlı iqtisadi inkişaf üçün möhkəm təməl formalaşdırmışdır.

2014-cü il sənayenin inkişafında mühüm mərhələ olmuşdur. "Azərbaycan Polad İstehsalı Kompleksi" Səhmdar Cəmiyyəti formalaşdırılmış, "Daşkəsən filizsaflaşdırma" müəssisəsinin fasiləsiz fəaliyyəti təmin edilmişdir.

Sumqayıt Texnologiyalar Parkının, Alüminium İstehsalı Kompleksinin və Azərbaycan Polad İstehsalı Kompleksinin yaradılması, Bakıda Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodlarının qurulması, Sumqayıtda neft-kimya sənayesində modernizasiya işlərinə başlanılması və Karbamid Zavodunun

inşası, Qaradağda Sement Zavodunun istehsal gücünün artırılması və yeni zavodun inşası, Qazaxda, Naxçıvanda yeni sement zavodlarının tikilib istifadəyə verilməsi qeyri-neft sənayesinin növbəti mərhələdə daha dərin şaxələndirilməsi üçün geniş imkanlar yaradır.

Ötən dövrdə ölkədə qeyri-neft sənayesinin əsas həlqələrini formalaşdıran maşınqayırma, avadanlıq istehsalı, cihazqayırma və tikinti materiallarının istehsalı sahələrində yeni rəqabətqabiliyyətli müəssisələr yaradılmış, o cümlədən Gəncədə traktor və kənd təsərrüfatı texnikası, Naxçıvanda avtomobil, Mingəçevirdə elektron avadanlıqlar, Sumqayıtda günəş panellər, Qaradağda metal konstruksiyalar, Hacıqabulda seramik plitələr istehsalı müəssisələri qurulmuşdur. Bununla yanaşı, son illərdə güclü müdafiə sənayesinin qurulması istiqamətində mühüm layihələr icra olunmuş, qısa müddətdə bu sahədə 50-yə yaxın yeni istehsal sahəsi yaradılmışdır. Müdafiə sənayesi müəssisələri tərəfindən hərbi təyinatlı məhsullarla yanaşı, mülki məmulatların da istehsalı təşkil olunmuşdur ki, onların həcmi son illərdə 2 dəfə artırılmışdır.

Məhz bu vəziyyətdə gözlənir ki, Azərbaycanda sənaye parklarının yaradılması daha geniş vüsət alsın. Belə parkların yaradılması isə xaricdən müvafiq məhsul idxalının azalmasında da mühüm rol oynamaq iqtidarındadır. Qeyd edək ki, Azərbaycanda sənaye parklarının yaradılmasına başlanması bəzi parametrlər baxımından mühüm önəm kəsb edir. Belə ki, xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parkları sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq imkanına sahibdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına xüsusi önəm verir. Türkiyə, Almaniya, Polşa, Latviya, Rusiya, Çin və Cənubi Koreya təcrübələri göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Ekspertlər də bu mənada ölkəmizdə qeyd edilən istiqamətdə atılan addımları yüksək qiymətləndirir.

Sənaye parkları həm də qeyri-neft sahəsinin sürətli inkişafını şərtləndirəcək. Rəsmi proqnozlara görə, bu il qeyri-neft sektorunun ÜDM-də payı 62%-ə, büdcə gəlirlərində isə 35%-ə faizə çatdırılacaq. Digər tərəfdən, iqtisadiyyatın şaxələnməsi üçün isə, təbii ki, xüsusən də qeyri-neft sektorunda sənayenin dəstəklənməsi qaçılmazdır. Aparılan ekspert araşdırmalarından da məlum olduğu kimi, 2010-cu ildən başlayaraq neft hasilatının azaldığını və son illər ümumi daxili məhsuldakı artımın daha çox qeyri-neft sektorunun üzərinə düşdüyünü nəzərə aldıqda, enerji sferasında sənayeləşmənin inkişaf etdirilməsinin və emaledici sektorun genişləndirilməsinin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Ekspertlər onu da vurğulayır ki, sənaye parkları kiçik və orta müəssisələrin inkişafı, bazara çıxması üçün əlverişli mühit formalaşdıra bilər. Bütün bunlar bir daha sənaye parklarının həqiqətən də böyük əhəmiyyətə malik olduğunu üzə çıxarır.

Bütün bunlara baxmayaraq MİS-in müxtəlif elementlərinin qarşılıqlı asıllıq mexanizmləri tam işləmirlər. Baxmayaraq ki, respublikada innovasiya sferasında bir sıra qanunverici və normativ aktlar qəbul edilmişdir, lakin indiyə qədər innovasiyalar haqqında, müəssisələrin innovasiya fəaliyyəti haqqında, elm və dövlət elmi-texniki siyasəti haqqında, innovasiya inkişafında əsas olan sənədlər, qanunlar qəbul edilməmişdir. İnkubatorların, innovasiya mərkəzlərinin, texnoparkların, texnopolislərin,

injiiniring, lizinq və digər təşkilatların normativ - innovasiya infrastrukturunun hüquqi bazasının formalaşma üzrə iş sona kimi yerinə yetirilməmişdir. Həmçinin, regional səviyyədə innovasiya potensialının möhkəmləndirilməsi məsələləri həll olunmamış qalmışdır.

Azərbaycan iqtisadiyyatında islahat aparılması şəraitində əsas məsələlərdən biri müəssisə və təşkilatların, müəssisələrin, firmaların, şirkətlərin innovasiya fəallığının artırılmasıdır. Bu mərhələdə innovasiyanın inkişafının fərqli cəhəti daha proqressiv texnoloji proseslərə və çevik istehsalata tez bir zamanda keçiddir, bu da yeni rəqabətqabiliyyətli, dünya standartlarına cavab verən məhsul istehsal etməyə imkan verir.

Bu gün respublikada iqtisadiyyatın qeyri neft sektorunun əhəmiyyəti artmaqdadır.

Sahibkarlıq sektorunda bunlar rəqabətqabiliyyətli məhsul istehsal edən iri və orta müəssisələrdir. Bu sektora dövlət tərəfindən investisiyalar qoyulur.

Dövlət tərəfindən innovasiya fəliyyətinə verilən dəstək innovasiya xidmətlərinin və infrastrukturun lazım olan səviyyədə inkişaf etməməsinə görə çox vaxt öz səmərəsini vermir.

Respublikada MİS-in inkişafına sistem yanaşmanın olmasına ehtijac var.

Yaradilan texnoparklar və innovasiya infrastrukturunun digər elementləri (müəssisələr, unversitetlər və s.) arasında sıx əməkdaşlıq, informasiya mübadiləsi demək olar ki, yox dərəcəsindədir. Hər struktur ayrı-ayrılıqda fəaliyyət göstərir və digərinin işindən xəbər tutmur. Ona görə də işlərdə təkrarlamalar baş verir. İnnovasiya prossinin üzvləri arasında bazarın tələblərinə vaxtında reaksiya vermək, rəqabətlilik və əlaqələrin genişlənməsi bütün təşkilatların səmərəliliyini artıracaq. Məqsədyönlü siyasi tədbirlər innovasiya prosesinin inkişafına təkan verərdi.

Bu gün sabit iqtisadi artımı əsas məsələlərin həlli üçün Azərbaycanın ehtiyat və imkanlarını birləşdirmək lazımdır. Bu isə bir tərəfdən fundamental və tətbiqi elmlərin arasında əlaqələrin güclənməsi, digər tərəfdən isə innovasiya məhsulunun istehsalı və bazarın zəbt edilməsi halında mümkündür. Ölkənin innovasiya sisteminin inkişafının prioritet istiqamətləri əqli və sənaye mülkiyyəti bazarının inkişaf mexanizminin yaradılmasıdır.

İnnovasiya infrastrukturu daima inkişaf edir, onun yeni obyektləri yaradılır. Bu gün innovasiya sistemi infrastrukturuna texnologiya transferi mərkəzləri, innovasiya-texnologiya mərkəzləri, texnoparklar, biznes-inkubatorlar, innovasiya fəaliyyəti üçün kadr hazırlığı mərkəzləri, vençur fondları və s. aiddir.

İnnovasiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi Respublikamızın elmi-texniki potensialının yüksəldilməsi, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələrinin iqtisadiyyatın real sektoruna yönəldilməsi və eləcə də iqtisadiyyatda artım tempinin aşağı düşməsinin qarşısının alınması mexanizminin formalaşdırılması sisteminin yaradılmasını nəzərdə tutur. Bu cür məsələlərin həll olunması üçün bir sıra mühüm irimiqyaslı siyasət sənədləri (konsepsiya, strategiya və proqramlar) qəbul olunmuşdur: “Azərbaycan. Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)”; "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası"; “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)”; “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”; "Azərbaycan Respublikasında 2010-2014-ü illərdə turizmin inkişafına dair Dövlət

Proqramı"; “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”; "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"; “Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı”; "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər)" və sairə.

Sənayecə inkişaf etmiş ölkələrin əksəriyyəti üçün innovasiya fəaliyyəti məsələləri müəyyənedici faktor rolunda çıxış edir. İntellektual fəaliyyətin nəticəsi olan elmi-texniki məhsullar sənaye mülkiyyətinin qorunub saxlanması sisteminin yaradılmasını tələb edir. Belə sistemlər inkişaf etmiş ölkələrin mütləq atributlarından biridir.

Misal üçün, ABŞ-da texnoloji siyasət o cümlədən aşağıdakılara yönəldilmişdir:

- özəl sektorun inkişafı və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi üçün münbit şəraitin yaradılması;
- texnologiyaların kommersiyalaşdırılmasının inkişafının stimullaşdırılması;
- 21-ci əsr texnologiyalarının yaradılmasına kapital qoyuluşu.

Respublikamızda innovasiya fəaliyyəti formalaşmaq mərhələsindədir.

Ölkəmizin iqtisadiyyatında son vaxtlar baş vermiş əsaslı dəyişikliklər dövlət səviyyəsində mövcud iqtisadi vəziyyətdən irəli gələn qərarlar qəbul edilməsini tələb edir.

Bizim respublikamızın güclü elmi-texniki potensialı, elm və texnikanın müxtəlif sahələrində mühüm nailiyyətləri, fundamental tədqiqatlar üzrə kifayət qədər elmi bazası vardır. Respublikamızda uzun müddət ərzində yaradılmış unikal elmi istehsalat bazası vardır, lakin bu bazadan istifadə yaranmış iqtisadi şəraitdə səmərəli deyil. Mövcud potenisaldan elmi-texniki işləmələrin yaradılmasında və istehsalatda tətbiq olunmasında çox zəif istifadə edilir. Bunun başlıca səbəblərinə ölkədə mövcud olan iqtisadi durum, əksər rəhbər və elmi işçilərin menecment, marketinq sahəsində biliklərə malik olmaması, müəssisələrin vəsaitlərinin çatışmaması, təşkilatlara dövlətin maliyyə dəstəyinin məhdud olması, ölkənin maliyyə-kredit sisteminin zəif inkişaf etməsi aid edilə bilər. Respublikamızda innovasiya fəaliyyəti üçün vacib olan və bazar iqtisadiyyatının tələblərinə uyğun olan təşkilatı-iqtisadi mühit, stimul və qaydalar sistemi mövcud deyildir.

Respublikamızın ümumidaxili məhsulunun strukturunda elmtutumlu məhsulların payı 0,2% təşkil etdiyi halda, inkişaf etmiş ölkələrdə bu göstərici 2-3% arasında tərəddüd edir.

Respublikamızda yaranmış yeni iqtisadi şəraitdə əksər elmi-texniki təşkilatlar və müəssisələr işləməyə hazır deyildir. Bir çox elmi işləmələrin səviyyəsi yüksək olmadığına görə onları hazır məhsul kimi satışa çıxarmaq və istehsalatda tətbiq etmək mümkün deyildir. Bununla əlaqədar olaraq ölkə iqtisadiyyatı üçün təhlükəli olan meyl - istehsal edilən əmtəələrin və xidmətlərin ölkə bazarından sıxışdırılıb çıxarılması, mövcud bazarların itirilməsi təhlükəsi güclənmişdir.

Yaranmış xoşagəlməz meyllərin qarşısının alınması üçün ölkəmizin milli innovasiya strategiyası işlənməlidir və ona dövlətin sosial-iqtisadi və elmi-texniki siyasətinin mərkəzi istiqamətlərindən biri kimi baxılmalıdır. Belə bir strategiya ölkənin intellektual və istehsal potensialının hərtərəfli qiymətləndirilməsinə, intellektual məhsullar bazarının inkişaf perspektivlərinin nəzərə alınmasına söykənən uzunmüddətli proqnozlar əsasında yaradılmalıdır.

Respublikamızın innovasiya siyasətinin başlıca məqsədi istehsalın texnoloji səviyyəsinin yüksəldilməsindən və rəqabət qabiliyyətli məhsullar istehsalının həcminin artırılmasından ibarətdir.

İlkin mərhələdə innovasiya fəaliyyətinə dövlət tərəfindən dəstək göstərilməlidir, sonra isə onun intensivləşdirilməsinə və səmərəliliyinin artırılmasına yönəldilən stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Onu da nəzərə almaq lazımdır ki, bir sıra xarici ölkələrin əldə etdikləri texnoloji nailiyyətlər yalnız ayrı-ayrı fərdlərin şəxsi səyləri əsasında deyil, innovasiya fəaliyyətinə məqsədyönlü dövlət müdaxiləsi, o cümlədən onun inkişafına xidmət edən hüquqi bazanın yaradılması yolu ilə mümkün olmuşdur. İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsi inkişaf etmiş ölkələrdə iqtisadiyyatın inkişaf etdirilməsinin mühüm instrumenti, milli rəqabət qabiliyyətinin təmin olunmasının uzunmüddətli faktoru əhalinin rifah halının yüksəldilməsinin etibarlı amili kimi qiymətləndirilir.

Dövlət innovasiya proseslərinə həm birbaşa, həm də dolayı təsir göstərmək vasitələrinə malikdir. Onların nisbəti ölkədə mövcud olan iqtisadi vəziyyətdən və ona münasib olan dövlət tənzimlənməsi konsepsiyasının seçilməsi istiqamətindən asılı olaraq müəyyən edilir.

İnnovasiya siyasəti sahəsində dövlətin əsas vəzifələrinə aşağıdakılar aid edilir:

- innovasiya fəaliyyətinin aktivləşdirilməsini stimullaşdıran normativ-hüquqi bazanın formalaşdırılması:
- innovasiya fəaliyyətinə maliyyə dəstəyinin göstərilməsi, Respublikanın innovasiya potensialının qorunub saxlanması və daha da möhkəmləndirilməsi üçün şəraitin yaradılması;
- innovasiya infrastrukturun formalaşdırılması və onun inkişafına yönəldilən tədbirlərin görülməsi;
- innovasiya fəaliyyətinə yönəldilmiş kadrların hazırlanması.
- Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün dövlətin innovasiya siyasətinin başlıca prinsipləri aşağıdakılardan ibarət olmalıdır:
- ölkə iqtisadiyyatının innovasiyaya əsaslanan inkişaf yoluna yönəldilməsi, innovasiya fəaliyyətinin intensivləşdirilməsi üçün bazar mexanizmlərindən maksimum istifadə olunması;
- ölkəmizin elmi-texniki potensialından səmərəli istifadə olunması;
- innovasiya fəaliyyəti göstərən bütün subyektlərin qanun qarşısında bərabər olması;
- intellektual obyektlərin mülkiyyət hüququnun qorunması, onların gəlir əldə etmək mənbəyi olduğunun tanınması;
- innovasiya fəaliyyətinin inkişafına şərait yaradan çevik kredit, vergi və gömrük siyasətinin həyata keçirilməsi.

İnnovasiya siyasətinin reallaşdırılmasmda özəlləşdirmə, innovasiya infrastrukturunun yaradılması, yerlərin ayrılması və rasional istifadə olunmayan avadanlıqların innovasiya subyektlərinə verilməsi böyük əhəmiyyətə malikdir.

Qarşıda qoyulan məqsədlərə nail olmaq üçün innovasiya fəaliyyəti iştirakçılarının işini əlaqələndirən elmi-texniki (texnoloji) parkların, innovasiya mərkəzlərinin, texnologiyaların transfer mərkəzlərinin, biznes-inkubatorların (innovasiya infrastruktur subyektlərinin) yaradılması səyləri dövlət tərəfindən maksimum dəstəklənir.

Yerli idarəetmə orqanlarına innovasiya infrastrukturları subyektlərinin yaradılması prosesində təsisçi kimi iştirak etməyə və onların nizamnamə fonduna torpaq sahəsi, binalar və qurğular formasında paylar ayırmağa hüquqi imkan verilmişdir.

Elmi-tədqiqat təşkilatçılarının qarşısında duran problemləri nəzərə alaraq, innovasiya təşkilatlarının yaradılması təqdir edilir, onlara güzəştli şərtlərlə yer və avadanlıq ayrılır.

Yeni iqtisadi şəraitdə işləməyi bacarmaq qabiliyyətinə malik olan kadrların hazırlanması sisteminin təşkilinə Respublikamızda böyük əhəmiyyət verilir. Bu onunla izah olunur ki, müvafiq biliklərə və təcrübəyə malik olmadan güclü rəqabət şəraitində innovasiya biznesində müvəfəqiyyət qazanmaq çox müşkül məsələdir.

Qeyd etmək lazımdır ki, innovasiya fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın daim təkmilləşdirilməsinə ehtiyac vardır. Bununla əlaqədar olaraq milli və xarici ölkələrin innovasiya fəaliyyəti ilə əlaqədar olan hüquqi aktları təhlil edilmiş, onların əsasında mövcud hüquqi sənədlərə yenidən baxılmış və Azərbaycan Respublikası Prezidentinin sərancamlarından irəli gələn səmərəli təkliflər işlənmişdir. «Milli innovasiya sisteminin formalaşdırılması və inkişafı proqramı», «Milli innovasiya sisteminin konsepsiyası» işlənib hazırlanmışdır.

Azərbaycanın milli maraqları innovasiya siyasətinin formalaşdırılması və reallaşdırılması istiqamətində inamlı fəaliyyət göstərilməsini tələb edir. Ona görə də yeni iqtisadi və sosial-siyasi reallıqların tələblərinə cavab verən və istehsalın yenidən qurulmasına şərait yaradan irimiqyaslı kapital axınına əsaslanan elmi-texniki strategiyanın yaradılması həmin siyasətin mühüm tərkib hissələrindən biri kimi qiymətləndirilməlidir.

Yuxarıda göstərilən məsələlərin həllinə uyğun olaraq 10 aprel 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti «Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında» sərəncam imzalamışdır. Sərancamın "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın reallaşdırılması və həmin strategiyadan irəli gələn Dövlət layihələrinin hazırlanması baxımından böyük əhəmiyyəti vardır.

Elmi innovasiya fəaliyyətinin səmərəliliyi sərgi fəaliyyətindən, istehsalçıların müxtəlif beynəlxalq informasiya şəbəkə və təşkilatlarında iştirakından bilavasitə asılıdır. Belə işlərin dövlət himayəsi olmadan həyata keçirilməsi çox çətindir. Belə bir şəraitdə bahalı və unikal avadanlıqların lizinq formasında innovasiya fəaliyyətinin məqsədlərinə cəlb olunması da aktivləşdirilməlidir.

Yuxarıda qeyd olunan konsepsiya əsasında dövlət innovasiya siyasətinin reallaşdırılması üçün lazım olan mexanizmlərin yaradılması üçün təşkilatı-hüquqi, sosial-iqtisadi və təbliğat-informasiya tədbirlər kompleksinin işlənməsi zəruridir.

İnkişaf etmiş ölkələrin innovasiya sistemlərindən fərqli olaraq Azərbaycan Respublikasının innovasiya sistemi qeyri-sabit iqtisadi mühitdə, bazar münasibətlərinin tam bərqərar olunmadığı şəraitdə, yeni texnikanın və texnologiyanın alınması və mənimsənilməsi üçün kifayət qədər xüsusi kapitalın yönəldilməsinin mümkün olmadığı bir dövrdə formalaşdırılır. Regional münasibətlərin əsasını təsərrüfatçılıq subyektlərinin bərabər hüquqlarının təmin olunması və özünün müxtəlif sosial-iqtisadi inkişaf problemlərinin həllində regionlara sərbəstlik verilməsi təşkil edir.

Dövlətçiliyin əsas əlamətlərindən biri təsərrüfatçılıq subyektlərinin iqtisadi cəhətdən öz-özünü kifayət qədər təmin etməsi təşkil edir. Lakin hal-hazırda respublikamızda bu şərtin tələbləri kifayət qədər ödənmir.

Ölkədaxili dövlət siyasətinin mühüm istiqamətlərindən birini regionların sosial-iqtisadi inkişafında diferensasiyanın dərəcəsinin aşağı salınması təşkil edir. Beynəlxalq təcrübə göstərir ki, milli (dövlət) innovasiya sistemləri ərazilərin inkişaf etdirilməsinin çox səmərəli alətidir. Hər bir regionda və ya regionlar qrupunda yaranmış vəziyyəti fərdi yanaşmadan istifadə etməklə öyrənərək, onların inkişaf problemlərini həll etmək olar.

Beləliklə, hansı regionda siyasi və iqtisadi baxımdan mümkündürsə, orada iqtisadi xüsusiyyətləri, tarixi və mədəni ənənələri nəzərə alan, iqtisadi inkişaf templərini təmin edən makro səviyyədə milli regional innovasiya sistemləri yaradılmalıdır. Eyni zamanda dövlət səviyyəsində də aparılan makro-iqtisadi siyasətə əsaslanan innovasiya sistemi yaradılmalıdır. Belə sistemlərin müvafiq regional elementlər üzrə inteqrasiya olunması yolu ilə hiper səviyyədə fəaliyyət göstərə bilən vahid milli innovasiya sisteminin formalaşdırılması mümkündür.




**Şəkil 1. Ümumiləşdirilmiş innovasiya dövrü**

Milli innovasiya sistemi dedikdə dövlətin iqtisadi siyasətindən irəli gələn və müvafiq normativ hüquqi baza ilə tənzimlənən, iqtisadi cəhətdən sərfəli olan yeni biliklərin istehsalı, yayılması və istifadəsində qarşılıqlı əlaqələndirilmiş şəkildə iştirak edən təsərrüfatçılıq subyektlərinin məcmusundan ibarət olan regional iqtisadi sistem başa düşülür. Milli innovasiya sisteminin yaradılmasının başlıca məqsədi mövcud intellektual potensialdan səmərəli istifadə, yeni biliklərin generasiyası, yayılması və həyata keçirilməsi yolu ilə ölkənin davamlı iqtisadi inkişafının təmin olunmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün ilk növbədə ölkənin elmi-texnoloji kompleksinin və yüksək texnoloji sənayesinin prioritet inkişafını, buraxılan məhsulların, xüsusilə daxili bazarda, rəqabət qabiliyyətinin yüksəldilməsini nəzərdə tutan regional innovasiya siyasəti işlənib hüquqi təsdiqlənməlidir. Bu zaman ali təhsilin dünya səviyyəsinə qaldırılmasına və kadr hazırlığı problemlərinin həllinə, o cümlədən də gənclərin elmə cəlb olunmasına xüsusi diqqət yetirilməlidir.

Milli innovasiya sisteminin formalaşdırılmasında aşağıdakı əsas prinsipial tələblər ödənməlidir:

- innovasiya siyasətinin formalaşdırılmasma sistemli yanaşma;
- ərazilərin xüsusiyyətini nəzərə alan və inteqrasiya edilə bilən regional innovasiya sistemlərinin sərbəst formalaşdırılması;
- regional prioritetlərin razılaşdırılması;
- fundamental elmlərin, ali təhsilin və yüksək texnologiyaya əsaslanan sənayenin inkişaf prioritetlərinin müəyyənləşdirilməsi;
- mənbələri konkret göstərilməklə ehtiyatların prioritet istiqamətlərdə cəmləşdirilməsi.

Bütün bunlarla yanaşı milli innovasiya sisteminin formalaşdırılması zamanı aşağıdakı hallar nəzərə alınmalıdır:

1. Son ilin təcrübəsi göstərir ki, ölkəmizin iqtisadiyyatının inkişafına əsaslı təsir göstərmək üçün lazım olan qədər xarici investisiyanın sənaye sahələrinə cəlb edilməsinə ümid çox azdır.
2. Elm və texnologiya sahələri ümumiyyətlə xarici investisiyaların bilavasitə cəlb edildiyi obyektlər deyildir.
3. İstehsal olunmuş məhsullar əksər hallarda beynəlxalq bazarlarda rəqabət qabiliyyətli ola bilmir.
4. İnkişaf etmiş ölkələr öz bazarlarına məhsul çıxarılmasına məhdudiyyətlər (bunun mümkün olduğu ölkələrdə) qoyurlar.
5. Ölkədaxili bazar xarici ölkələrdən idxal olunan məhsullara bir qayda olaraq müqavimət göstərə bilmir.

Bütün bunları nəzərə alaraq milli innovasiya sisteminin formalaşdırılması prosesində ilk növbədə ölkəmizin elmi-texniki, texnoloji intellektual potensialından və maliyyə imkanlarından çıxış etmək lazımdır.

Azərbaycanda innovasiya sahəsində yaranmış vəziyyət innovasiya proseslərinin inkişafına maneçilik törədən neqativ obyektiv və subyektiv amillərin nəticəsidir. Onlardan ən başlıcası Azərbaycanın innovasiya sisteminin formalaşdırılmasının elmi-metodoloji bazasının olmamasıdır. Ölkəmizdə innovasiya fəaliyyətinin inkişafına cavabdeh olan dövlət təşkilatları tərəfindən elmi işçilərin və mütəxəssislərin potensialından da zəruri tədqiqatların aparılması üçün tam istifadə edilməmişdir. Ayrı-ayrı alimlər və kollektivlər müəyyən elmi-tədqiqat proqramlarının həyata keçirilməsində iştirak etmişlərsə də, bu sistemli xarakter daşımadığından böyük elmi potensial uzun müddət istifadə olunmamış qalmışdır. İnnovasiya fəaliyyətinin elmi təminatının zəif olması, hətta konseptual səviyyədə dövlət innovasiya siyasətinin formalaşmasına imkan verməmişdir. Müxtəlif strukturlar, o cümlədən dövlət strukturları tərəfindən bu problemin həllinə yönəldilən tədbirlər bəzən sistemli xarakter daşımır, bir sıra hallarda isə bu strukturlar ölkəmizin elmi və təhsil potensialını biliklərə əsaslanan iqtisadiyyatın qurulması üçün əsas hesab etmirlər. Nəticədə elmi-texniki, texnoloji və təhsil komplekslərinə dövlətin dəstəyi qeyri-adekvat xarakter daşıyır, ölkə iqtisadiyyatının innovasiyalara əsaslanan inkişaf xəttinə keçməsi məsələlərinin həlli çətinləşir.

Növbəti problemlərdən biri də innovasiya proseslərinin kifayət qədər səmərəli idarə olunmamasıdır. Ümumilikdə, aparılan araşdırmalarda belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında innovasiya infrastrukturunun bütün subyektlərinə (sənaye parkları, texnoparklar, aqroparklar, sənaye məhəllələri və s.) dövlət dəstəyinin və

güzəştlərərin şamil edilməsi üçün bu subyektlər haqqında ümümi dövlət qanunvericiliyinin və innovasiya fəaliyyəti ilə məşğul olan subyektləri əlaqələndirən qurumun olması məqsədəuyğun olardı. Belə bir əlaqələndirici sistemin olması innovasiya infrastrukturunun bütün subyektlərinin fəaliyyət sahəsinə, yerləşməsinə və tərkibinə, istiqamətinə, eləcə də digər məsələlərə dair mərkəzləşmiş qeydiyyatının və monitorinqinin aparılmasına, onlar haqqında məlumatların daim yenilənməsinə, müəyyən edilmiş hallarda və qaydada dövlət və yerli özünüidarəetmə orqanlarını, habelə fiziki şəxsləri həmin məlumatlarla təmin etmək, innovasiya infrastrukturu subyektləri üzrə informasiya sistemlərini aparan dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyini artırmaq üçün vahid dövlət reyestrinin də yaradılması məqsədəuyğundur.

Dünya təcrübəsi göstərir ki, milli innovasiya sistemlərinin yaradılmasının başlıca təşəbbüskarı və onun inkişaf etdirilməsini ehtiyatlarla, o cümlədən maliyyə vəsaitləri ilə təmin edən dövlət olur. Bir qayda olaraq fundamental tədqiqatlar dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilir. Tətbiqi xarakterli tədqiqatlar isə büdcə və qeyri-dövlət vəsaitləri hesabına, o cümlədən də iri korporasiyaların vəsaitləri hesabına yerinə yetirilir. İnnovasiya məhsullarına əsaslanan istehsalın təşkili iqtisadiyyatın özəl sektorunun öz ehtiyatları hesabına həyata keçirilir.

Azərbaycanda dövlət tərəfindən göstərilən maliyyə dəstəyi ilk növbədə vəsaitlərin birbaşa dövlətin və ya subyektlərin büdcəsindən ayrılması formasında həyata keçirilir. Yuxarıda qeyd edildiyi kimi innovasiya fəaliyyətinə təkcə fundamental və tətbiqi tədqiqatlar deyil, həm də istehsal aid edilir. İnnovasiya fəaliyyətinin səmərəliliyi təkcə elmi işləmələrin və texnologiyaların səviyyəsi ilə deyil, həm də onlardan istifadə etmək imkanına malik olmayan sənayenin vəziyyəti ilə müəyyən edilir. Bu baxımdan başlıca məsələlərdən biri də vəsaitlərin istehsalatın yeniləşdirilməsinə və müasir səviyyəyə qaldırılmasına cəlb edilməsidir.

Aydın məsələdir ki, indiki şəraitdə elmə ayrılmış vəsaitlər hesabına innovasiya fəaliyyətinin bütün problemlərini həll etmək mümkün deyildir. Vəsaitlər səpələnir və səmərəsiz istifadə olunur. Beləliklə, ölkə istehsalçılarına maliyyə dəstəyi verilməsinə yönəldilən proqramlar, məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, irimiqyaslı innovasiya layihələrinin və şairənin yerinə yetirilməsi dövlət büdcəsindən maliyyələşdirilməməlidir, başa çatdırılmış ETTKİ-lərə əsaslanmalıdır və yeni yüksək texnologiyalı istehsal obyektlərinin yaradılmasını təmin etməlidir. Birbaşa dövlət dəstəyi ünvanlı xarakter daşımalıdır, istər kapital qoyuluşu formasında, istərsə də intellektual mülkiyyət hüququnun verilməsi yolu ilə həyata keçirilə bilər. Belə hallarda birbaşa investisiya qoyuluşları həcmi bir qayda olaraq konkret müəssisələr tərəfindən dövlət büdcəsinə vergi ödənişləri məbləğindən çox olmamalıdır.

İnnovasiya fəaliyyətinin ehtiyatlarla təmin olunması haqqında danışarkən mülkiyyət məsələlərinə toxunmamaq mümkün deyildir. Son vaxtlar dövlət elmi-tədqiqat təşkilatlarının «daha səmərəli mülkiyyətçilərə» verilməsi fikirləri tez-tez səslənir. Məsələnin belə qoyuluşu əsaslı deyildir, çünki məhz dövlət strukturları indi daha səmərəli mülkiyyət sahibləridir. Bu, dövlət ali təhsil sisteminə də şamil eilir. Özəl biznesin elmi-texnoloji sahənin inkişafında iştirakı hələ ki, epizodik xarakter daşıyır. Buna görə də dövlətdən başqa digər «daha səmərəli mülkiyyətçilərdən» danışmaq hələ tezdir. Həm də mülkiyyətçilərin səmərəlilik meyarları demək olar ki, yoxdur. Dünya təcrübəsi göstərir ki, müəssisələrin fəaliyyəti onların mülkiyyət formasından deyil, idarəetmənin keyfiyyətindən, konkret mütəxəssislərin peşəkarlığından asılıdır. İqtisadiyyatın elmi-

texnoloji bazasının yaradılması və inkişafa aparan innovasiya iqtisadiyyatının bərqərar olunması üçün mövcud elmi kadr potensialından faydalanmaq çox gərəklidir.

İnnovasiya fəaliyyətinin ehtiyatlarla səmərəli təmin olunmasının təşkil edilməsi üçün dövlət tərəfindən ilk növbədə dövlət elmi-texnoloji sektoru formalaşdırılmalıdır və dövlət büdcəsinin vəsaitləri hesabına həyata keçirilərək proqramların və layihələrin maliyyələşdirilməsi qaydası müəyyən olunmalıdır.

Hal-hazırda dünya ölkələrinin əksəriyyətində sənayenin inkişafına yönəldilən innovasiya sistemlərinin yaradılması prosesi başa çatmaqdadır. Bu prosesdə həlledici rol dövlətə məxsusdur. O, MİS-in fəaliyyət qaydalarını və müxtəlif ehtiyatlarla, o cümlədən maliyyə vəsaitləri ilə təmin olunması mexanizmlərini müəyyən edir. MİS-in texnoloji bazasını fundamental və tətbiqi tədqiqatlar və işləmələr həyata keçirən təşkilatlar, elmtutumlu kütləvi məhsullar istehsal edən iri korporasiyalar (bu korporasiyalar, xüsusilə elmtutumlu kiçik biznes strukturlarının inkişafını təmin edirlər) təşkil edir. MİS-in inkişafı onların hiper sistemlərdə cəmləşdirilməsi və qlobal innovasiya sistemlərinin yaradılması istiqamətində aparılır. Bu istiqamətdə ABŞ-da, Avropa Birliyi ölkələrində və Asiyada müəyyən işlər aparılır.

Formalaşmaqda olan milli innovasiya sistemi təkcə biliklərə əsaslanan iqtisadiyyatın inkişafını deyil, həm də Azərbaycanın dünya innovasiya prosesinin bərabər hüquqlu iştirakçısına çevrilməsini təmin etməlidir. Son onillikdə ölkəmizin innovasiyaya əsaslanan inkişaf yoluna çıxarılması üçün real şərait yaradılmışdır. Hər şeydən əvvəl, ölkənin innovasiya iqtisadiyyatının texnoloji özəyini təşkil edəcək elmi-texniki potensialını, təhsil sistemini, yüksək texnologiyaya əsaslanan sənayenin bir hissəsini qoruyub saxlamaq mümkün olmuşdur. Eyni zamanda elmtutumlu sahələrdə kiçik sahibkarlıq strukturlarının dəstəklənməsi mexanizmləri seçilmiş, innovasiya infrastrukturunun yaradılmasının əsası qoyulmuş; ərazilərin innovasiya mexanizmlərinə əsaslanan inkişaf istiqamətləri müəyyən olunmuş; innovasiya proseslərini və komplekslərini idarə etmək bacarığına malik olan kadr hazırlığı sistemi yaradılmışdır.

## 2. HƏM DÖVLƏT QURUMLARININ NƏZDİNDƏ, HƏM DƏ REZİDENTLƏR TƏRƏFİNDƏN YARADILAN YÜKSƏK TEXNOLOGİYALAR PARKLARINDA VƏ BİZNES İNKUBATORLARINDA FƏALİYYƏT GÖSTƏRƏN ŞİRKƏTLƏRƏ GÜZƏŞTLƏRİN TƏTBİQ EDİLMƏSİ

İnnovasiya iqtisadiyyatının yaradılması Azərbaycan Respublikasının inkişafının prioritetlərindəndir. Bu gün təbii ehtiyatlar ocağı olan Azərbaycan qeyri-neft sahələrinin inkişafına istiqamətlənir. Bu da respublikada elmi-təhsil kompleksinin, sənayenin inkişafını sürətləndirməyi tələb edir. Azərbaycanda biliyə əsaslanan yeni innovasiya biznesinin yaradılması imkanları inkişaf etdirilməlidir.

Respublikanın iqtisadiyyatının diversifikasiyasının məqsədi yeni növ məhsul və xidmətlərin istehsalı hesabına ÜDM-in artırılması, yerli və dünya bazarında yüksək texnoloji məhsulun rəqabət qabiliyyətliliyinin artırılması, istehsal səmərəliliyinin artırılması üçün yeni texnologiyaların yaradılması və qabaqcıl texnologiyaların cəlb edilməsi, elmtutumlu sahələrin artırılmasıdır.

Buna görə də texnoparklar şəbəkəsinin konsepsiyası elmə əsaslanan biznesin (sahibkarlıq fəailliyətinə) inkişafına yönəldilir.

Texnoparkın yaradılması və səmərəli fəaliyyətinə təsir edən 2 əsas halı qeyd edək:

- fəaliyyət göstərən normativ-hüquqi baza demək olar ki, yox dərəcəsindədir;
- dövlət dəstəklənməsinin səmərəli tədbirlər sistemi tam işlənməyib.

Aparılan tədqiqatlara əsasən, texnoparkın səmərəli fəaliyyəti yalnız idarəetmənin müxtəlif səviyyələrində tədbirlər sistemini nəzərə alaraq, onun yaradılması və fəaliyyətinin bütün mərhələlərində səmərəli dövlət dəstəyi mexanizminin yaradılması şəraitində mümkündür (cədvəl 1).

Texnoparkların dəstəklənməsi tədbirləri selektiv xüsusiyyətə malik olmalıdır. Bu tədbirlər dövlət və regional səviyyədə məqsədi, göstərilən nəticəni və ixtisaslaşdırılmış texnoparkların inkişafının əsas göstəricilərini müəyyən edən uyğun proqramların qəbul edildikdə maksimal realizə edilir. Qərarın proqram üsulunun seçilməsinə əsas, bütün səviyyədə aparılan dəyişikliklərin mərkəzləşmiş qaydada planlaşdırılması lazımdır. Tədbirlərin həyata keçməsinə istiqamətlənmiş ehtiyatların istifadəsinə səmərəli idarəetmə və nəzarət vacibdir. Belə proqramların üstünlüyü ondadır ki, onlar bir tərəfdən dəqiq nəticələrə bağlanır, digər tərəfdən isə regional siyasətin əsas istiqamətini həyata keçirir.

**Cədvəl 1**

**Texnoparkın yaradılması və fəaliyyəti üçün dövlət dəstəyi tədbirləri**

| İdarəetmə səviyyələri Həyat dövrü mərhələləri | Yaradılması | İnkişafı | Stabillik | Durğunluq |
|---|---|---|---|---|
| ***Respublika*** | Normativ-hüquqi bazanın təkmilləşməsi (Texnopark iştirakçılarına kirayə hüququ ilə istehsal sahələrinin ayrılması). Texnoparkın həyat dövrü mərhələlərində özəl- dövlət əməkdaşılğının forma və şərtlərinin normativ müəyyən edilməsi. Texnoparkların inkişaf proqramının işlənməsi. Sahə inkişafının elmi-texniki siyasətinin işlənməsi. Dövlət büdcəsindən parkların infrastrukturunun inkişafının və binaların tikilməsinin dəstəklənməsi (dəstəklənmə yolları: vergi güzəştlərinin, güzəştli kreditlərin verilməsi, birbaşa subsidiyalar və s.) Yüksək texnoloji məhsulların istehsalının inkişafı üzrə fundamental və tətbiqi ETTKİ-nin inkişafı. | Bəzi kredit xərclərinin faizlərinin dövlət büdcəsindən ödənilməsi üzrə qanunvericiliyin işlənməsi;<br>a) məhsul və materiallar<br>b) texnoloji avadanlıq və ona ehtiyat hissələri | Texnopark müəssisələrinin innovasiya və investisya fəaliyyətinin stimullaşdırması üzrə qanunverici tədbirlərin işlənməsi və təkmilləşməsi | Stimullaşma xüsusiyyətli vergi rejiminin qəbul edilməsi (ETTKİ inkişafı). Avadanlığın lizinqi üzrə güzəştli maliyyələşmə. Yeni istehsalın təşkili üzrə dövlət dəstəyi tədbirlərinin işlənməsi. ETTKİ dövlət subsidiyalarının və müqavilələrinin təqdim edilməsi. |
| ***Region*** | Texnoparklara verilən xidmətlər üzrə məlumat bazalarının yaradılması. Səhmlərin əvəzinə girov götürməyən xüsusi ixtisaslaşdırılmış maliyyə müəssisələrinin açılması. Texnoparkda innovasiya proseslərinin məqsədyönlü dəstəklənməsi. Kiçik müəssisələrə ödənişsiz istehsal sahələrinin verilməsi, hüquqi və maliyyə məsləhətlərinin verilməsi. Texnoparkların gələcək inkişafını nəzərə alaraq innovasiya mərkəzlərinin (texnoloji mərkəz, biznes-inkubator, texnopark və s.), mühəndis və nəqliyyat infrastrukturunun, yaşayış binalarının tikintisinin və s. inkişafına dəstək. Texnoparklara məlumat-reklam dəstəyi. Ayrıca götürülmüş müəssisə bazasında texnoparkların elmi-metedoloji və normativ bazasının işlənməsi. | Yeni məhsula sifarişin formalaşması. Texnoparkların inkişafına büdcədən məqsədli kreditlərin ayrılması. Büdcədən məqsədli kreditlərin ödənişlərinin bəzi hissələrinin büdcə hesabına bağlanması. Texnopark iştirakçıları arasında stimullaşdırma tədbirlərinin həyata keçməsi (konfransların, seminar və s. təşkili) Texnoparklar üçün kadrların hazırlanması və ixtisasların artırılması. | Əmlak vergisinə, gəlir vergisinə, kommunal ödənişlərə güzəşt məqsədli dövlət proqramlarının monitorinqi, texnoparkların layihələrinin daxil edilməsi | Texnoparkların ixtisaslaşdırılması sahələr üzrə məqsədyönümlü inkişaf proqramı. Güzəştli şərtlərlə kreditlərin verilməsi. Yeni növ yüksək texnoloji, innovasiya məhsulunun işlənməsi və mənimsənilməsi üzrə subsidiyaların verilməsi. Vencur investisiyası |

## 3. DÖVLƏT İNNOVASİYA SİYASƏTİNİ MÜƏYYƏNLƏŞDİRƏN VƏ İCRA EDƏN ƏLAQƏLƏNDİRİCİ QURUMLARIN FƏALİYYƏTİNİN KOORDİNASİYASI

Beləliklə, deyə bilərik ki, respublikada MİS-in inkişafına sistem yanaşmanın olmasına ehtiyac vardır. Azərbaycan Respublikasında innovasiya infrastrukturunun bütün subyektlərinə (sənaye parkları, texnoparklar, aqroparklar, sənaye məhəllələri və s.) dövlət dəstəyinin və güzəştlərərin şamil edilməsi üçün bu subyektlər haqqında ümümi dövlət qanunvericiliyinin və innovasiya fəaliyyəti ilə məşğul olan subyektləri əlaqələndirən qurumun olması məqsədəuyğun olardı. Belə bir əlaqələndirici sisteminin olması innovasiya infrastrukturunun bütün subyektlərinin fəaliyyət sahəsinə, yerləşməsinə və tərkibinə, istiqamətinə, eləcə də digər məsələlərə dair mərkəzləşmiş qeydiyyatının və monitorinqinin aparılmasına, onlar haqqında məlumatların daim yeniləmək, müəyyən edilmiş hallarda və qaydada dövlət və yerli özünü idarəetmə orqanlarını, habelə fiziki şəxsləri həmin məlumatlarla təmin etmək, innovasiya infrastrukturu subyektləri üzrə informasiya sistemlərini aparan dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyini artırmaq üçün vahid dövlət reyestrinin də yaradılması məqsədəuyğundur.

Aşağıdakılar təklif edilir:

- Azərbaycan Respublikasında innovasiya infrastrukturunun subyektləri üçün ümumi qanunvericiliyin hazırlanması;
- İnnovasiya infrastrukturu subyektlərinin vahid dövlət reyestrinin yaradılması
- və aparılması;
- İnnovasiya fəaliyyəti ilə məşğul olan subyektləri əlaqələndirən qurumun yaradılması;
- İnnovasiya infrastrukturunun subyektləri üçün ümumi dövlət dəstəyi və vergi güzəştlərin hazırlanması;
- İnnovasiya subyektlrinin rezidentlərinin subyekt tərkibində qalmasını stimullaşdırmaq üçün xüsusi vergi güzəştlərinin tədbiq edilməsi (məsələn: ƏDV faizlərinin azadılması və s.).

“Azərbaycan Respublikasında innovasiya infrastrukturunun formalaşması və inkişafı haqqında Qanun” və “Azərbaycan Respublikasının İnnovasiya infrastrukturu subyektlərinin vahid dövlət reyestrinin aparılması qaydası haqqında Əsasnamə” layihələri hazırlanmışdır.

## 4. VENÇUR KAPİTALLAŞMASI FƏALİYYƏTİNİN APARILMASI ÜÇÜN QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Vençur maliyyələşməsi innovasiya kompaniyasının inkişafı və genişlənməsindən gəlir əldə etmək üçün yüksək riskli investisiya vəsaitidir.

İnnovasiya müəssisəsinin yaradılması mərhələsində (start-up mərhələsi) investisiyadan fərqli olaraq vençur maliyyələşməsi kompaniya ilk gəlir gətirməyə başladıqda, başqa sözlə inkişaf və genişlənmənin ilkin mərhələsində həyata keçirilir.

Vençur maliyyələşməsi əsasən vençur fondları və biznes-layihələr (innovasiya layihələrinə şəxsi vəsaitlərini yerləşdirməyə hazır olan fiziki şəxslər) həyata keçirirlər. İdarəetmə kompaniyası qapalı səhmdar fondun təşkilati-hüquqi şəklində yaradılır.

Vençur investisiyasının əsas xüsusiyyətləri aşağıdakılardır:

- kompaniyanın "portfeli"-nin qiymətinin artmasında professional vençur investorlar (mütəxəssislər) komandasının aktiv iştirakı;
- investisiyanın cəlb edilməsi kompaniyanın nizamnamə kapitalının və ya borcun konvertasiyası yolu ilə həyata keçirilir;
- kompaniya gələcəkdə investorların marağına uyğun qurulur;
- investisiya strategiyası ortamüddətli və uzunmüddətli olur;
- vençur investisiyasının son məqsədi, gəliri aktivlərin strateji və ya portfel investorlarına satışının nəticəsində və ya kompaniyaların aksiyalarını satışa verməklə əldə etməkdir.

İnnovasiyaların maliyyələşdirilməsində vençur kapitalının rolu:

Dinamik inkişaf edən iqtisadiyyat daim özü ilə yeniliklər və dəyişikliklər gətirir. Bəşər tarixinin inkişafının müxtəlif mərhələlərində iqtisadiyyatın təkamülü həmişə məhsuldar qüvvələrin istehsala səmərəli cəlb olunması problemi ilə qarşı-qarşıya dayanmışdır. Bu baxımdan resurslardan qənaətli istifadə və bunun qarşılığında daha çox məhsul istehsal edərək bazara təqdim etmək kimi məsələlər həm sahibkarlıq subyektlərinin həm də elm adamlarının əsas müzakirə obyektinə çevrilmişdir.

Yeniləşən və inteqrasiya olunan müasir dövrümüzdə, dövlətlərarası, regionlararası və şirkətlərarası rəqabətin kəskinləşdiyi vaxtda göstərilən problemlər daha qabarıq xarakter alaraq ölkəmizin dünya bazarında yerinin müəyyənləşməsi və mövqeyinin möhkəmləndirilməsi baxımından mühüm aktuallıq kəsb edir.

Qeyd edək ki, inkişaf etmiş dövlətlər bu məsələlərin həllində daha çevik siyasət həyata keçirərək iqtisadiyyatın elastik və dinamik inkişafını qabaqlamaq və onun tələblərini qarşılamaq məqsədilə özlüyündə daha mürəkkəb və sadə təzahür formasına malik biznes alətlərini formalaşdırmağa çalışırlar. Təbii ki, bunun kökündə yenə də mövcud insan, kapital, əmək ehtiyatları, təbii sərvətlər kimi resurslardan maksimum səmərəli istifadə olunması məsələləri dayanır.

İstehsalda səmərəlilik əldə edilməsi məqsədilə son dövrlər insan amili mərkəzə çəkilərək digər resurslar onunla əlaqələndirilir və bu ikili qarşılaşdırmalar nəticəsində yeni kombinasiyalar meydana çıxır ki, nəticədə məhsuldar qüvvələrin yeniləşmiş gücü ortaya çıxır. Bu baxımdan qarşıya qoyduğumuz problemin mərkəzində insan və kapital amili qarşılaşır ki, bunun da nəticəsində bənzəri olmayan yeni məhsul, spontan inkişaf və daha çox gəlir gətirən bir model ortaya çıxır.

Fikrimizcə, vençur kapitalını insan və maliyyə kapitalının qarşılıqlı sintezindən meydana çıxan bir məhsul adlandırsaq heç də yanılmarıq.

1950-ci illərin sonlarında ABŞ-da meydana çıxan vençur kapitalı tezliklə özünə geniş fəaliyyət meydanı əldə etdi.

Vençur kapitalı bazarda yeni yaranan və özünə müvafiq yer qazanmaq uğrunda mübarizə aparan firmaların maliyyələşdirilməsi üçün nəzərdə tutulan investorlar tərəfindən yönəldilən maliyyə vəsaitidir. Vençur sərmayələri digər investisiyalardan yüksək riskli olması ilə fərqlənirlər.

Vençur kapitalı bir çox hallarda birbaşa özəl investisiya qoyuluşunda istifadə edilir və adətən xarici sərmayəçilər tərəfindən həyata keçirilir. Lakin, dövlət qurumları tərəfindən də bu növ investisiyalar yatırılmaqdadır. Bu tip investisiya qoyuluşları əsasən yeni və ya müflis olmaq təhlükəsi ilə üzbəüz qalmış şirkətlərin inkişafı üçün həyata keçirilir.

Vençur sərmayəsi sonda çox yüksək gəlir gətirən, amma bununla yanaşı yuxarıda da qeyd etdiyimiz kimi yüksək riskli investisiyalardır. Həmçinin bu tip investisiyalar müəssisənin kapitalında pay sahibi olmaq üçün də istifadə olunur.

Vençur fondları innovasiya layihələrini güzəştli əsasda maliyyələşdirə bilər. Vençur fondları innovasiya fəaliyyətinin çox kanallı mənbələrindən istifadə etməklə kapitalı birləşdirə və paylaşdıra bilər.

Bu halda innovasiyanın maliyyələşməsi ilə əlaqədar risk müxtəlif tərəfdaşlar arasında səhm kapitalı fondunda iştirak dərəcəsinə görə mütənasib bölünür.

Fondun vəsaitlərini eyni zamanda bir neçə innovasiya layihəsinə yerləşdirdikdə gəlir əldə etmək ehtimalı artır.

İnnovasiya fəaliyyəti riskli xarakterə malik olduğundan vençur (innovasiya) fondları öz risklərini diversifikasiya etməli, layihə portfelini formalaşdırmalıdır. İqtisadi inkişaf etmiş ölkələrin təcrübəsinə görə innovasiya fondu portfelində 10 maliyyələşən layihədən 9-u gəlir gətirmir, 10-cu layihə isə 100% gəlir gətirməlidir ki, orta gəlir 10% olsun. Bu ölkələrdə innovasiya fondlarına milli kommersiya bankları, korporasiya, şəxsi insanlar, investisiya bankları, beynəlxalq investorlar vəsaitlərini investisiya edirlər.

Vençur fondları "boz" (qeyri-leqal) və kriminal kapitalların böyük hissəsini cəlb edə bilərlər. Risk kapitalı investorlarının intensiv fəaliyyəti vəsait qoyuluşunda onların maddi marağını əks etdirir. Digər bərabər şəraitdə belə maraq aşağıdakı vəziyyətlərlə izah edilir:

- kapital qoyuluşunun yüksək faiz gətirən alternativ üsulunun olmamağı;
- kredit bazarında ənənəvi əməliyyatlar üçün borc faizinin aşağı olması;
- dövlətin pul-kredit siyasətinin risk maliyyələşməsinin stimullaşdırılması;
- sənaye-maliyyə qruplarının birgə maraqları və s.

Riskin vençur kapitalı bazarının inkişaf etdirilməsi məqsədi ilə vençur sahibkarlığı kredit ehtiyatları bazarında güzəştlərin verilməsi ilə, innovasiya firmalarına və vençur müəssisələrinə vergilərin aşağı salınması ilə dövlət tərəfindən stimullaşdırılmalıdır.

Vençur sərmayəçisi dedikdə isə bu növ investisiyaların qoyuluşunu həyata keçirən şəxs və ya şirkət kimi başa düşülür. Vençur sərmayəçiləri kapitalın yatırılması forma və şəklinə görə genişmiqyaslı və dar çərçivəli investor olmaqla iki hissəyə ayrılırlar. Həyat şəraitinin müxtəlif səviyyələrində, çoxsaylı geoiqtisadi regionlarda və iqtisadiyyatın fərqli sahələrində çalışan vençur investorları geniş miqyaslı vençur investoru adlanır. Dar mənada dedikdə isə bu əsasən iqtisadiyyatın götürülmüş bir və ya iki sferasında həyata

keçirilən investisiya fəaliyyəti başa düşülür.

Vençur sərmayəçiləri əsasən firmaların ilkin fəaliyyətinin maliyyələşdirilməsi ilə xarakterikdirlər. Lakin, şirkətlərin inkişafının müxtəlif səviyyələrində də vençur investisiyalarının yatırımlarına rast gəlmək olar.

Vençur kapitalı müəssisə hələ heç bir məhsul istehsal etmədən və ya özünün qiymətli kağızlarını buraxmadan şirkətə yatırıldığından ona çox vaxt start kapitalı adı da verilir. Bununla yanaşı vençur investisiyası firmanın çətin vəziyyətindən çıxması üçün də yatırılır ki, bu da şirkətə özünün ağır dövrlərini keçərək bazarda müvafiq yerini tuta bilməsinə böyük yardım edir.

Bir sıra vençur fondları bazarda səhmdar cəmiyyətlərinin yenidən qurulması və yenidən kapitallaşmasına dəstək göstərməklə bu yolla onların investorlar üçün cəlb edici hala gətirilməsi istiqamətindəki fəaliyyətlərinə görə də ixtisaslaşırlar.

Qeyd edək ki, vençur sərmayəçiləri üçün başlıca cəzb edici sahə dünyanın müxtəlif regionlarında əldə edilən elmi-texniki nailiyyətlərin maliyyələşdirilməsidir. Bununla yanaşı vençur sərmayəçiləri bəzi hallarda tikinti sektoruna, sənaye sahəsinə, xidmət sferasına da maliyyə qoyuluşu edirlər. Son dövrlər isə vençur şirkətləri pərakəndə satış və sosial məsuliyyət sferası üzrə işləyən firmalar üzrə də ixtisaslaşaraq buna xeyli vəsait də yatırırlar.

Vençur şirkətləri ölçülərinə görə müxtəlif olurlar. Belə ki, ailə səviyyəsində kiçik maliyyə vəsaiti yatıranlar - bunlar da adətən bir neçə milyonlarla dollar vəsait həcmində olur, orta və daha nəhəng sərmayəçilər ki, bu tip investorlar da bir neçə yüz milyonlardan başlayaraq hətta dünya səviyyəsindəki layihələrin həyata keçirilməsinə milyardlarla dollar vəsait yatırırlar.

Vençur sərmayəçiləri digər invetorlardan fərqli olaraq vəsait yatırdıqları şirkətlərin inkişaf etdirilməsi üçün məsləhətlər verərək onların idarə olunmasında yaxından iştirak edirlər. Bu sərmayəçilər onlarla və hətta yüzlərlə şirkətə investisiya yatırmaqla özlərinin kapitallaşma sahəsindəki mövcud təcrübələrini daha da təkmilləşdirməyə çalışırlar.

Onu qeyd etmək lazımdır ki, vençur kapitalı bütün şirkətlər üçün uyğun deyildir. Belə ki, vençur fondları istənilən layihələrə və innovativ təkliflərə tez bir zamanda vəsait ayırmırlar. Onlar müştərilərdən (iqtisadçılardan, mühəndislərdən, fiziki və hüquqi şəxslərdən) xeyli sayda layihə təkliflərini toplayır, təmkinlə empirik prinsiplər əsasında onları qiymətləndirir və sonda onları maliyyələşdirilib və ya maliyyələşdirilməməklə bağlı qərarlar verirlər. Bu səbəbdən də təcrübə göstərir ki, bir çox hallarda investora təqdim edilmiş yüz layihədən yalnız bir-ikisi maliyyə vəsaiti əldə edə bilir. Bu baxımdan da vençur kapitalı sərmayələrin çətinliklə əldə edilməsi, tələbkarlığın çox olması və yüksək rəqabətin mövcudluğu ilə də analoji investisiyalardan xeyli dərəcədə fərqlənirlər.

Vençur sərmayəçiləri əsasən yüksək risklərə malik olmasına baxmayaraq sonda yüksək inkişaf göstəricisi vəd verən layihələrin nəticələrini 3-7 il arasında gözləməyə razı olaraq maliyyə yatırırlar.

Əgər, hər hansı bir şirkətin yaxşı tərtib edilmiş və əsaslandırılmış biznes-planı, yüksək ixtisasa və təcrübəyə malik olan menecerlər heyəti, təsisçilərin özlərinin də maliyyə qoyuluşları və işin uğuruna yüksək inamı, layihənin icrasından illik 40%-lik mənfəət gözləmələri varsa onda bu layihəyə investoru cəlb etmək asan olar.

Vençur sərmayəçilərini cəlb edən əsas amillərə aşağıdakıları aid etmək olar:

- əmtəə və xidmətlər bazarı ilə bağlı yeni innovativ ideyalar, innovativ texnologiya və məhsulun yenilənmiş şəklinin bazara daxil edilməsi;

- şirkətin idarə olunmasında qərarların qəbuluna təsiredici səsə malik olmaqla iştiraka cəlb olunması;
- patentləşdirilmiş, müəlliflik hüququ olan və məxfiliyi qorunan ixtira əsasında ortaya çıxmış yeni məhsulların olması;
- şirkət daxilində əlverişli mühitin olması vençur sərmayəçisində ilkin kapital yatırmaqla yanaşı gələcək inkişaf layihələrinin də maliyyələşdirilməsi üçün də stimul yaradır;
- vergi güzəştlərinin olması;
- bu sahənin inkişafına yönəlmiş dövlət qayğısının və dəstəyinin olması və s.

Vençur sərmayəçiləri üçün başlıca cəlb edici sahələr aşağıdakılardır:

- informasiya-kommunikasiya texnologiyaları;
- kompüter avadanlığının istehsalı və proqram təminatı;
- rabitə və multimediya avadanlıqlarının istehsalı;
- internet və elektron biznesin inkişafı;
- təbiət elmlərinə daxil olan sahələr;
- biotexnologiya üzrə yeniliklər;
- tibbi avadanlıqların istehsalı;
- diaqnostik və terapiya avadanlıqları və s.

Vençur maliyyələşdirməsini əsaslandıran şərtlərə:

- vençur sərmayəçisi investisiya qoyuluşunun qarşılığında şirkətin kapitalında iştirak payı əldə edir;
- investorun əsas gəliri – onun payının dəyərinin artmasıdır;
- şirkətdaxili gözlənilən gəlirin səviyyəsi 35-40% arasında dəyişir;
- sərmayəçinin əlində olan zəmanət – şirkətin idarə olunmasında rəhbərlik və bir səhmdar kimi hüquqlarının qorunmasıdır;
- riskin dərəcəsinin yüksək və daha yüksək olmasıdır (Təbii ki, riskə nisbətən də artan gəlir);
- layihənin təhlilinin əsas predmetinin menecer heyətinin yüksək peşəkarlığı və şirkətin bazar imkanlarının geniş olmasıdır;
- investor adətən 3-7 ildən sonra gəlir əldə edir.

Vençur layihələrinin maliyyələşdirilməsi mənbələrinə isə aşağıdakıları aid etmək olar:

- şirkətin təsisçilərinin şəxsi vəsaitləri;
- pensiya fondlarından cəlb olunan kapital;
- dövlət və beynəlxalq təşkilatların qrantları (əvəzsiz maliyyəsi);
- ali təhsil ocaqlarının, Elmi-tədqiqat İnstitutlarının və araşdırma mərkəzlərinin vəsaitləri;
- fərdi vençur sərmayəçilərinin maliyyəsi;
- vençur firmalarının kapitalı;
- vençur fondlarının vəsaitləri və s.

Qeyd etdiyimi kimi Azərbaycan üçün yeni olan bu investisiya növü Qərbdə artıq 60 ilə yaxındır ki, geniş tətbiq olunur. Bu baxımdan inkişaf etmiş ölkələrin təcrübələrindən istifadə olunması bu İnstitutun ölkəmizdə də formalaşması və inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.

Bu sahədə ABŞ vençur kapitalının formalaşmasının beşiyi kimi də xarakterizə olunur. ABŞ Milli Vençur Kapitalı Assosiasiyasının 2008-ci il məlumatına görə vençur şirkətləri

tərəfindən ABŞ iqtisadiyyatında 12 milyon nəfərlik iş yeri və 3 trln. ABŞ dolları həcmində maliyyə vəsaiti formalaşdırılmışdır. Deməli, vençur şirkətlərinin əsas kapitalı ABŞ iqtisadiyyatında iş yerlərinin açılması və gəlirlərin artmasında mühüm rola malikdir.

Həmçinin, vençur kapitalının əsas etibarilə innovasiyalar və yüksək inkişaf potensialına malik olan firmalar sahəsində də genişlənməsi ABŞ iqtisadiyyatında keyfiyyət baxımından yaxşı göstəricilərin əldə edilməsinə gətirib çıxarır.

Keçən əsrdə vençur kapitalı nou-haunun inkişafı, yüksək-inkişafa əsaslanan sənaye sahələrinin yəni, informasiya kommunikasiya texnologiyalarının, biotexnologiyaların, yarımkeçiricilərin və elektron-satışın inkişafı üçün başlıca alət rolunu oynamışdır. 2008-ci ildə bir sıra ekspertlər yuxarıda göstərilən siyahıya ekoloji təmiz texnologiyalar və sosial məsuliyyət kimi sahələrin inkişafının da əlavə edilməsini təklif etmişdirlər.

Amerikada 1970-ci ildən 2008-ci ilə kimi 27 000 dən çox firmanın inkişafına qoyulan bütün vençur kapitalının həcmi 456 mlrd. ABŞ dolları olmuşdur. Vençur kapitalı əsasında inkişaf edən müəssisələr əsas: Masaçuset, Pensilvaniya, Texas ştatlarında müşahidə olunmuşdur.

Milli Vençur Kapitalı Assosiasiyasının mütəxəssislərinin də qeyd etdiyi kimi vençur kapitalı innovativ ideyalara və elmi nailiyyətlər əsasında öz məhsul və xidmətlərini formalaşdıran sahibkarlıq subyektlərini dəstəkləməklə iqtisadi artıma və yeni iş yerlərinin açılmasına kömək göstərməklə bizim həyatımızı yaxşılığa doğru dəyişir.

Araşdırmalar göstərir ki, vençur sərmayəçiləri və ya iş adamları heç də biznes sahəsində çalışan insanlar arasından çıxmır. Bu yeni fəaliyyət sahəsinə gələnlərin əksəriyyəti elmi tədqiqat, mühəndislik və tibbi ixtisas sahələrində uğur qazanan mütəxəssislərdir.

Bu insanlar öz sahələrində qazandıqları və əldə etdikləri uğurları daha da inkişaf etdirərək onu biznes sahəsinə gətirmiş və bunun əsasında özlərinin sahibkarlıq subyektlərini formalaşdırmışdılar. Bu səbəbdəndir ki, 2008-ci ildə ABŞ-da aparılan araşdırmalara əsasən yeni yaranan orta ölçülü vençur sərmayəli müəssislər 9-10 nəfər tədqiqatçı mütəxəssisdən ibarət olmuşdur.

Vençur kapitalının 60 illik fəaliyyəti dövründə ABŞ iqtisadiyyatına hazırda dünyada tanınmış şirkətləri bəxş edərək onların inkişafına təkan vermişdir. Bunların sırasından Amazon, Google, Apple, Cisco, Staples və eBay kimi nəhəng korporasiyaları göstərmək olar. Bu səbəbdən də müasir dövrdə dünyanın əksər ölkələri bu sahədə ABŞ-ın əldə etdiyi uğurları öyrənməyə çalışaraq özlərində də onun inkişafı üçün dövlət siyasətinin formalaşdırılması və vergi sisteminin qurulması istiqamətində səylərini artırmaq üçün ABŞ-la əməkdaşlıq etməyə çalışırlar.

ABŞ-da vençur kapitalı əsasən aşağıdakı sahələrin inkişafına güclü təkan vermişdir:

- informasiya texnologiyaları;
- biotexnologiya;
- tibbi ləvazimatların istehsalı;
- şəbəkə təhlükəsizliyi;
- elektron ticarət və sosial media;
- ekoloji təmiz texnologiya.

Hal-hazırda Avropada vençur kapitalı əsasında yaranmış xeyli sayda şirkət fəaliyyət göstərir. Belə ki, Avropa Vençur Kapitalı Assosiasiyasının 2005-ci ilin məlumatlarına əsasən bu regiona cari il ərzində 12,5 mlrd. ABŞ dolları məbləğində vençur kapitalı cəlb edilmişdir.

Rusiyada isə Vençur kapitalı əsaslı şirkətlərin formalaşdırılmasına Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyə dəstəyi ilə 1994-cü ildən başlanılmışdır. Sözügedən dövrdə Regional Vençur Fondları yaradılmışdır ki, bu da Rusiyanın 10 vilayətindən olan 10 qurumu əhatə edir. 1997-ci ildə isə Rusiya Vençur İnvestisiyası Assosiasiyası təsis edilmişdir ki, onun da tərkibinə Rusiyada fəaliyyət göstərən 12 vençur fondu daxildir.

Vençur kapitalı üzrə inkişaf edən vençur firmalarının üstün cəhətləri:

- şəxsi kapitalın davamlılığının artırılması;
- başqa maliyyələşmə mənbələrinin cəlb edilməsi imkanlarına çıxana kimi firmanın ilkin formalaşması üçün lazım olan ilkin vəsaitin əldə edilməsi və gələcək inkişafı üçün əlverişli imkanın yaradılması;
- borclar və faizlər üzrə ödəmələrin olmaması;
- firmanın vençur sərmayəçinin malik olduğu yüksək idarəetmə bacarığından, geniş maliyyə imkanlarından və xeyli sayda olan bazar əlaqələrindən istifadə etmək imkanının olması və s.
- Vençur kapitalı üzrə formalaşan vençur firmaların çatışmazlıqları:
- layihənin (ixtiranın) icra müddətinin və özünüdoğrultma vəziyyətinin tam dəqiq şəkildə təxmininin çətin olması;
- vençur sərmayəçisi üçün zəmanətin olmaması və yüksək riskliliyin mövcudluğu;
- vençur sərmayəçisi tərəfindən şirkət qarşısından sonda yüksək gəlirin əldə edilməsi tələbinin qoyulması;
- vençur sərmayəçisinin şirkətin fəaliyyətinin idarə olunmasına birbaşa təsirinin sonda bütün rəhbərliyin onun əlinə keçməsinə gətirib çıxarması və s.

ABŞ və Avropada müasir vençur biznesin yaradılması və dinamik inkişafının əsas istiqamətləri aşağıdakılardır:

- kiçik innovasiya istehsal-texnoloji kompaniyaların işləmələrinin yüksək kommersiya potensialı;
- verilən istiqamətin inkişaf perspektivlərini qiymətləndirə bilən və kapital, onu təşkil edicilərləəlaqələndirici ola bilən professional menecerin olması;
- institusional investorlar deponə edilmiş kapitalın olması;
- qiymətli kağızlar bazarının inkişafı;
- vençur kapitalı şirkətlərin məhsul istehlakı bazarının yüksək həcmi vəödəmə qabiliyyəti və s.

Ümumiyyətlə vençur kapitalı təcrübəsinin Azərbaycana gətirilərək onun yerli şirkətlərdə, elm, təhsil ocaqlarında tətbiqi ölkə iqtisadiyyatının inkişafı, onun strukturunun dəyişdirilərək elmtutumlu sahələrin önə çəkilməsi, milli, regional və dünya səviyyəsində yeli şirkətlərin rəqabətqabiliyyətliliyinin artması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, vençur kapitalı hər şeydən əvvəl ona görə əhəmiyyətlidir ki, biz onun sayəsində Azərbaycanlı alimlər tərəfindən illərlə işlənmiş və müvafiq patent, müəlliflik hüququ alınmış elmi işlərin istehsalatda tətbiqini daha da sürətləndirə bilərik. Bununla yanaşı vençur kapitalı vasitəsilə yeni istehsal sahələrinin xüsusilə, də informasiya kommunikasiya texnologiyalarının, nanotexnologiyaların, biotexnologiyaların və digər elm sahələrinin inkişafına nail olmuş olarıq.

Bunun üçün isə sadəcə olaraq vençur kapitalı sahəsində böyük təcrübəyə və uğurlu

nəticələrə malik olan dövlətlərin və onların müəssisələrinin fəaliyyəti yaxından öyrənilməli və bunun əsasında institusional islahatları nəzərdə tutan proqramlar hazırlanaraq ardıcıl şəkildə həyata keçirilməlidir.

Vençur biznesinin problemlərindən söhbət açmamışdan öncə inkişaf etmiş vençur bazarlarının nailiyyətlərinin əsas başlanğıc şərtini təyin etməli və onu müasir Azərbaycan şəraitinə tətbiq etmək lazımdır.

Azərbaycanda vençur biznesinin inkişafıüçün bir sıra məsələləri həll etmək lazımdır. Kiçik firmalar böyüməlidir və aksiya buraxılışı ilə investorların gəlirini təmin etməlidir. Fond bazarı və iştirakçılar buna hazır olmalıdır. İdeyanın yaxşı satılan və gəlir gətirən məhsula çevrilməsi üçün aksiyalarburaxmaq lazımdır və s. Lakin burada da problemlər var: birinci, Azərbaycanda ödəmə qabiliyyəti olan tələbin həcmi böyük deyil, yüksək texnoloji məhsul isə maliyyə tələb edir; ikinci, respublikada işləmələrin kommersiyalaşdırılması sistemi gecikir.

Azərbaycanda vençur biznesinin inkişafına digər amillər də təsir edir:

- vençur kapitalının innovasiya biznesi ilə qarşılıqlı sərfəli əməkdaşlığını təmin edən infrastrukturun zəif inkişafı;
- Azərbaycanda vençur kapitalı mənbələrinin az olması;
- riskli kapital qoyuluşunun zəifliyi və bunun üçün lazım olan bazar mexanizminin olmaması;
- elmtutumlu layihələrin həyata keçirilməsində vençur kapitalının cəlb edilməsi üçün iqtisadi stimulun olmaması;
- kiçik elmtutumlu biznes sahəsində sahibkarlıq fəaliyyətinin aşağı olması;
- vençur biznesinin zəif informasiya dəstəyi;
- innovasiya layihələrinin ixtisaslı menecerlərinin çatışmazlığı və s.

Buna nail olmaq üçün vençur şirkətləri vençur investisiyasının fərdi qoyuluşunu stimullaşdırmalı, iqtisadiyyatda innovasiya sahələrinin inkişaf etdirməli və beynəlxalq bazarda Azərbaycan elmtutumlu texnoloji məhsullarının hərəkətini təmin etməlidir.

Vençur şirkətinin innovasiya sistemində rolu yüksək texnoloji sektorun vençur investisiyası və maliyyə dəstəkləməsinin stimullaşdırılmasıdır.

Dünya iqtisadi böhranı vençur biznesinin inkişafına mənfi təsir edir.

Vençur fondlarının dayanıqlı inkişafı fərdi investorların, kommersiya banklarının, sığorta şirkətlərinin, maliyyə-istehsal qruplarının vençur kapitalı bazarına keçməsinə stimul yarada bilər. Banklar layihənin hazırlanmasını, riskin bir hissəsini öz üzərinə götürə bilməsi bu sahədə biznesi inkişaf etdirə bilər.

Digər tərəfdən, investisiyalaşma mühitinin yaxşılaşmasıüçün qanunvericilik bazasının təkmilləşdirilməli, əqli mülkiyyətin təhlükəsizliyi və standartlaşması prosesi təmin edilməli, müəllif hüquqları və ticarət markası qorunmalı, innovasiya sahibkarlarına bu hüquqların qorunmasında kömək sistemi yaradılmalıdır.

Bu gün Azərbaycanda innovasiya infrastrukturu inkişaf etdirilməli, inkubatorların, texnoparkların açılması sürətləndirilməlidir. Azərbaycanda innovasiya aktiv müəssisələri çoxaldılmalıdır. Onlar rəqabətədavamlı kommersiyalaşma texnologiyası sahəsində elmi-texniki potensiala malik olmaqla, vençur kapitalı üçün maraq obyekti ola bilərlər.

Azərbaycanda texnologiyaların transferi də inkişaf etdirilməlidir. Xarici şirkətlərin Azərbaycana olan marağı buna təkan verə bilər. Respublikada «beyin axını»nın olması, kommersiyalaşmış texnologiyalar bazarının inkişaf etməməsi, texnologiyalara tələbin

zəif olması elmi-texniki potensialın azalmasına gətirir çıxarır, bu da vençur biznesin mövcudluğu şərtinə ziddir. Elmi-texniki potensialı inkişaf etdirmək, müəssisələrin innovasiya aktivliyini artırmaq üçün həvəsləndirmə tədbirləri görülməli, innovasiya aktiv şirkətlərinin stimullaşdırılması üzrə hüquqi baza təkmilləşdirilməlidir. Azərbaycanda rəqabətədavamlı texnologiyaların tətbiqi mexanizmi təkmilləşdirilməli, yerli investorlar yüksək ixtisaslı menecerlərimizin potensialından geniş istifadə etməlidirlər.

Vençur biznesinin üçüncü əsas şərtlərindən biri milli kapitaldır. Azərbaycanda müasir texnologiyalara vençur cəlb edilməsi üçün onun fəaliyyətini tənzimləyən normativ-hüquqi baza formalaşmalı, inkişaf etmiş ölkələrdə olduğu kimi, bu mexanizmlərdə dövlət dəstəklənməsi tədbirləri nəzərə alınmalıdır; Azərbaycanda qiymətli kağızlar bazarı inkişaf etdirilməlidir; vençur kapitalının çıxışının müxtəlif strategiyası proseduru işlənməlidir. Bu da vençur biznesinin səmərəliliyinin artmasına təminat yaratmış olacaqdır. Bu məqsədlə fond bazarının aktivləşməsi və bu prosesin dəstəklənməsi çox vacibdir. Bu, kapitalın yaradılmasını və texnologiyanın təkmilləşdirilməsini təmin etməklə yanaşı maliyyə riskinin səviyyəsinin azalmasına, vençur biznesinin investorlar tərəfindən cəlbediciliyinin artırılmasına, milli innovasiya sisteminin formalaşmasına imkan yaratmış olacaqdır.

Vençur biznesinin yaradılması və inkişafı qaçılmazdır. Bu mexanizmin tədqiqi Azərbaycan kapitalı və iqtisadiyyatıüçün vacibdir.

Respublikada innovasiya və texnologiyaların transferi qanunlarının qəbulu, onların inkişaf proqramları və konsepsiyalarının işlənilib həyata keçirilməsi vençur biznesinin də inkişafına təminat yaratmış olacaqdır.

## 5. İNNOVASİYAYÖNÜMLÜ STARTAP LAYİHƏLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ ÜÇÜN VENÇUR FONDLARININ, ELƏCƏ DƏ XARİCİ İNVESTORLARIN CƏLB EDİLMƏSİ ÜÇÜN TƏŞVİQEDİCİ TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

İnnovasiya fəaliyyətinin vəziyyəti hər bir cəmiyyətin və dövlətin iqtisadiyyatının inkişafının mühüm indikatorudur. İnkişaf etmiş ölkələrdə innovasiya siyasətidövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsini təşkil edir. O, iqtisadiyyatın yenidən qurulması, istehsalın texniki bazasının fasiləsiz yeniləşdirilməsi, rəqabət qabilliyyətli məhsul buraxılışı məsələlərinin həllinə imkan verir, başqa sözlə, innovasiya proseslərinin həyata keçməsi üçün əlverişli iqtisadi ab-havanın yaranmasına yönəlmişdir və elmlə istehsal arasında əlaqələndirici rolunda çıxış edir.

İnnovasiyanm sosial-iqtisadi məqsədlərin təmin olunmasında aktuallığını nəzərə alaraq innovasiya və investisiya fəaliyyətinin aktivləşdirilməsi Azərbaycan Respublikasında prioritet istiqamətlərdən biri kimi seçilmişdir. Bununla əlaqədar olaraq elmi işləmələrin istehsalatda tətbiqi səmərəliliyinin yüksəldilməsi Respublikamızın sosial-iqtisadi inkişafının mühüm məsələlərindən birini təşkil edir. Halbuki fəaliyyətdə olan təşkilatların iqtisadi, maliyyə və maddi-texniki təchizatının vəziyyəti Respublikamızda innovasiya proseslərinin inkişafına yol vermir. Respublikamızda mövcud olan iqtisadi durum, maliyyə-kredit sisteminin hüquqi bazası elmtutumlu istehsal sahələrinə investisiyanın cəlb olunmasına yardımçı ola bilmir.

Müasir dövrdə dünya təsərrüfatçılıq sisteminin inkişafını təyin edən amillərdən birini birbaşa xarici investisiya təşkil edir. Birbaşa xarici investisiya əks hallarda yeni texnikanın və texnologiyanın ölkəyə gətirilməsinə, yeni məhsul növlərinin buraxılmasının təşkil edilməsinə, başqa sözlə, harada hanasısa yaxşı bir şey varsa, ondan istifadə olunmasına yönəldilir.

1994-cü ildə “Əsrin müqaviləsi” imzalandıqdan sonra Azərbaycana birbaşa xarici investisiya axını başladı. Çox keçmədən Azərbaycanın neft və qaz resurslarının işlənməsi üçün xarici tərəflərdən birbaşa investisiya qoyuluşu təklifləri daxil olmuşdur. Daxil olan təkliflər hərtərəfli öyrənildikdən sonra 32 neft kontraktı bağlanmışdır. Neft sektoruna yönəldilən birbaşa xarici investisiya resursları bu sahənin fəaliyyəti ilə əlaqədar olan digər sahələrində inkişaf etməsinə əsaslı təkan vermişdir. Birbaşa xarici investisiya qoyuluşlarının cəlb edilməsində Azərbaycan maraqlı olan tərəf kimi ölkədə münbit investisiya şəraiti yaratmaq üçün məqsədyönlü islahatlar aparmağa çalışmışdır. Bu məqsədlə xarici tərəflərlə birgə investisiya fəaliyyəti göstərmək üçün kifayət qədər obyektiv xarakter daşıyan hüquqi baza yaradılmışdır. Eyni komandada xarici investorlar üçün çox mühüm amil olan siyasi və iqtisadi sabitlik təmin olunmuşdur. Lakin bütün bunlara baxmayaraq innovasiya proseslərinin həyata keçirilməsi məqsədilə ölkəyə xarici investisiya cəlb etmək mümkün olmamışdır. Düzdür, neft sektorunda həyata keçirilməkdə olan investisiya layihələri çərçivəsində ölkəmizə özündə müəyyən innovasiya elementlərini təcəssüm etdirən texniki-texnoloji vasitələr təşkilatı xarakterli modellər, müasir idarəetmə təcrübəsində gətirilir. Bütün bunlar innovasiyalı inkişaf xəttini əsas tutan Azərbaycan Respublikası üçün məqbul hesab edilə bilməz. Ona görə də ölkə prezidenti qeyri-neft sektorunun inkişafında əsalı ola biləcək texnoparkların yaradılmasına sərəncam vermişdir. Bütün bunlar ölkəmizdə innovasiya proseslərinin

inkişaf etdirilməsinə yönəldilən investisiya siyasətinin tərkib hissəsidir. Lakin nəzərdən qaçırmaq olmaz ki, müəyyən sahədə texnoloji yeniliklərə, sıçrayışlara nail olmaq üçün elm ilə istehsalatın vəhdət təşkil etməsinə, texniki-texnoloji bazanın daim yeniləşdirilməsinə, yaradıcı insanların biliyinin artırılmasına, elmi potensialının yüksəldilməsinə real şərait olmalıdır. Bundan ötrü isə təhsilin, elmin, təcrübi-sınaq bazalarının inkişaf etdirilməsinə nail olmaq lazımdır.

Respublikamızın investisiya fəallığını xarakterizə edən göstəricilərə, ölkə iqtisadiyyatının həm daxili həmdə xarici mənbələr hesabına investisiya qoyuluşunun artım tempini; xarici ölkələrə investisiya qoyuluşunun həcmini; xarici investisiya qoyuluşu mənbələri hesabına ölkəyə investisiya qoyuluşunun həcmini; əsas kapitala yönəldilən investisiyanın həcmini; adambaşına düşən investisiya qoyuluşu həcmini və sairəni aid etmək olar.

2017-ci ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş 11090,8 milyon manat vəsaitin 4623,0 milyon manatı və ya 41,7 faizi qeyri-neft sektoruna sərf edilmiş və bu sektorda investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 13,8 faiz artmışdır. Ümumi sərmayənin 73,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmiş, istifadə olunmuş vəsaitin 77,7 faizi məhsul istehsalı obyektlərinin, 16,0 faizi xidmət sahələri üzrə obyektlərin, 6,3 faizi isə ümumi sahəsi 1263,0 min kvadrat metr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 40,5 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 67,5 faiz, bank kreditləri 12,2 faiz, büdcə vəsaitləri 12,7 faiz, əhalinin şəxsi vəsaitləri 5,5 faiz, büdcədənkənar fondların vəsaitləri 1,4 faiz, sair vəsaitlər isə 0,7 faiz təşkil etmişdir.

1994-cü ildən sonra Azərbaycanda investisiya fəallığının artmasını müşahidə edilmişdir.




**Şəkil 2. İqtisadiyyata yönəldilən daxili investisiya (milyon manat)**

Diaqramdan görünür ki, 2013-cü ilədək ölkəmizdə investisiya qoyuluşları çox yüksək templə artmışdır. Lakin, 2013-cü ildən sonra investisiya fəallığı tempi yüksək olmamışdır. Bunu dünyada davam etməkdə olan maliyyə böhranı ilə əlaqələndirmək olar.

Xarici investisiya qoyuluşlarının dinamikasını şəkil 3-dən müşahidə etmək olar. (milyon ABŞ dolları)




**Şəkil 3. Xarici investisiya qoyuluşlarının dinamikası**

Şəkil 3-dən görünür ki, ölkəmizə xarici investisiya qoyuluşu artıb-azalan xətlə dəyişir.

Ölkədə münbit investisiya mühitinin olmasına və investisiyaya tələbatın yüksək olmasına baxmayaraq Azərbaycandan xarici ölkələrə investisiya axını müşahidə edilməkdədir.

Əsas kapitala yönəldilmiş daxili və xarici investisiyaların dinamikası cədvəl 2-dən görünür.

Cədvəl 2-dən göründüyü kimi, 2005-2016-ci illərdə ölkə iqtisadiyyatına əhəmiyyətli həcmdə investisiyalar qoyulmuşdur. Əsas kapitala yönəldilən investisiyaların ümumi həcmi 2005-ci ildə 6733,40 milyon manat, 2016-cı ildə 6733,40 milyon manat olmuşdur. İnvestisiyaların vəsait mənbəyinə görə təsnifatına nəzər saldıqda isə, 2005-ci illə müqayisədə 2016-cı ildə investisiyaların xüsusi çəkisinin olması diqqəti cəlb edir. 2005-ci ildə ümumi investisiyaların tərkibində daxili investisiyaların xüsusi çəkisi 31,3%, xarici investisiyaların xüsusi çəkisi isə 68,7% olmuşdur. 2016-cı ildə antoloji göstəricilərə əsasən, daxili investisiyaların xüsusi çəkisi 29,1%, xarici investisiyaların xüsusi çəkisi isə 70,9% təşkil etmişdir. Göründüyü kimi, 11 il ərzində daxili investisiyaların xüsusi çəkisi azalmış, xarici investisiyaların xüsusi çəkisi isə artmışdır.

**Cədvəl 2**

**Əsas kapitala yönəldilmiş daxili və xarici investisiyalar**

| İllər | Cəmi, milyon manat | o cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | daxili | | xarici | |
| | | Milyon manat | Ümumi həcmdə xüsusi çəkisi, faizlə | Milyon manat | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| 2005 | 6733,40 | 2104,90 | 31,3 | 4628,50 | 68,7 |
| 2010 | 14118,9 | 7499,2 | 53,1 | 6619,70 | 46,9 |
| 2012 | 20251,10 | 12148,40 | 60,0 | 8102,70 | 40,0 |
| 2013 | 21448,20 | 13178,90 | 61,4 | 8269,30 | 38,6 |
| 2014 | 21890,7 | 12715,0 | 58,1 | 9175,70 | 41,9 |
| 2015 | 20057,40 | 9058,50 | 45,2 | 10998,90 | 54,8 |
| 2016 | 22868,50 | 6652,40 | 29,1 | 16216,10 | 70,9 |

Yuxarıda qeyd olanları ümumiləşdirərək, belə bir nəticəyə gəlmək olar ki, ölkə iqtisadiyyatının inkişafı üçün iqtisadiyyata əhəmiyyətli həcmdə investisiyalar yönəldilir. Bu isə milli iqtisadiyyatının məqsədyönlü şəkildə davamlı inkişafından xəbər verir.

Keçid dövrünü artıq başa çatdırmış Azərbaycan Respublikasının qarşısında yeni çağırışlar və strateji vəzifələr durur. Sürətli qloballaşma və beynəlxalq iqtisadi inteqrasiya prosesləri fonunda beynəlxalq bazarda ixtisaslaşma güclənir, innovasiyalara söykənən və yüksək əlavə dəyər yaradan elm tutumlu iqtisadiyyat modelinə üstünlük verilir. Bu isə qlobal və regional səviyyədə rəqabətin kəskin artmasına səbəb olur.

Belə bir şəraitdə Azərbaycan Respublikasının qarşısında duran növbəti strateji vəzifə daha da şaxələndirilmiş, yüksək rəqabət qabiliyyətliliyə, məhsuldarlığa və səmərəliliyə malik ixrac yönümlü iqtisadiyyata transformasiyanın təmin edilməsindən ibarətdir. Bu vəzifə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, elmtutumlu iqtisadiyyatın formalaşdırılması, makroiqtisadi sabitliyin qorunması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, özəl sektorun dəstəklənməsi, qabaqcıl texnologiyaların və təcrübənin tətbiqi, insan kapitalının inkişaf etdirilməsi, xarici ticarət və investisiyaların təşviqini nəzərdə tutur. İnvestisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərlə yanaşı, ölkənin investisiya imicinin təşviqi də mühüm tədbirlər sırasında olmalıdır.

Bu məqsədlə bir sıra mühüm tədbirlər həyata keçirilə bilər:

- ölkənin investisiya potensialının təşviqi və prioritet sahələrə birbaşa xarici investisiyaların cəlb edilməsi məqsədi ilə müntəzəm ölkədə və xaricdə biznes forumların və digər işgüzar tədbirlərin təşkili;
- investisiya yönümlü mötəbər beynəlxalq tədbirlərdə iştirakın genişləndirilməsi;
- ölkənin iqtisadi potensialını, təbii resurslarını, investisiya mühitini, imkanlarını və layihələrini, o cümlədən ölkədəki prioritet sahələri təşviq edən təşviqat materiallarının və elektron resursların hazırlanması və yayılması;
- ixtisaslaşmış mötəbər beynəlxalq kütləvi informasiya vasitələrində (KİV) ölkənin təşviqatının aparılması.

Ölkədə investisiya qoyuluşunun stimullaşdınlması istiqamətində müvafiq dövlət qurumlan fəaliyyət göstərir:

**"Azerbaycan İnvestisiya Şirkəti" ASC**

"Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (AİŞ) Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" Sərəncamı ilə yaradılmışdır. AİŞ-in əsas məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etməklə və öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir.

**Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)**

Dövlət və özəl sektorun birgə təşəbbüsü olan Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən 2003-cü ildə təsis edilmişdir. Təşkilatın əsas fəaliyyət istiqamətlərindən biri xarici investorlar, yerli istehsalçılar və hökumət arasında körpü funksiyasını həyata keçirməkdən ibarətdir.

Bunlarla yanaşı, sənayeyə dəstək tədbirləri sırasına ölkədə sənaye parklarının və sənaye məhəllərinin yaradılması, bununla əlaqədar investisiyaların stimullaşdırılması mexanizmlərinin tətbiq edilməsini göstərmək olar.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli, 865 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"yə görə sənaye parkı ilə bağlı aşağıdakı stimullaşdırıcı tədbirlər müəyyən edilə bilər:

- vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər (Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən, sənaye parklarının rezidentləri üçün geniş güzəştlər tətbiq edilir. Qanunvericiliyə əsasən rezidentlər 7 il müddətinə əmlak, torpaq, mənfəət vergisindən, eləcə də istehsal məqsədi ilə idxal etdikləri avadanlıqlara görə ƏDV-dən azad olunurlar);
- sənaye parkının infrastrukturla təmin edilməsi;
- torpaq sahəsinin icarə haqqının aşağı həddində müəyyən edilməsi;
- güzəştli kreditlərin verilməsi;
- inzibati prosedurların sadələşdirilməsi;
- sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili;
- istilik və elektrik enerjisinin, suyun və qazın satışına, tullantı sularının axıdılmasına və məişət tullantılarının yığılmasına görə güzəştli tariflərin tətbiqi.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli, 186 nömrəli Qərarı ilə təsdiq olunan "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"yə görə sənaye məhəlləsi ilə bağlı aşağıdakı stimullaşdırıcı tədbirlər müəyyən edilə bilər:

- "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin 5- ci hissəsinə və "İcarə haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci hissəsinin ikinci abzasına əsasən torpaq sahəsinin və tikililərin icarə haqqının aşağı həddə müəyyən edilməsi;
- Güzəştli kreditlərin verilməsi;
- İnzibati prosedurların sadələşdirilməsi;

Eyni zamanda, son dövrlərdə ölkəmizdə milli valyutanın devalvasiyası və "üzən məzənnə" rejiminə keçidlə əlaqədar olaraq, makroiqtisadi sabitliyin təmin olunması

məqsədilə qeyri-neft sektoruna investisiyaların, xüsusilə xarici investisiyaların cəlb edilməsi, sahibkarlıq fəaliyyəti üçün daha münbit şəraitin formalaşdırılması istiqamətində yalnız 2015-2016-cı illər ərzində bir sıra qərarlar qəbul edilmişdir:

- İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli Fərmanı;
- Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli Sərəncamı;
- Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 15 yanvar 2016-cı il tarixindən etibarən əlavə dəyər vergisindən azad olunmuşdur. Bunun nəticəsi olaraq, hazırda 50 kiloqramlıq 1 kisə əla növ buğda ununun pərakəndə satış qiyməti ölkə ərazisində 23-24 manatadək enmişdir.
- “Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 oktyabr tarixli 656 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2015-ci il tarixli Fərmanı;
- “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 07 dekabr 2015-ci il tarixli Sərəncamı;
- “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 13 noyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu;
- “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1352-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında 26 oktyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu. Bu Qanunun 1-ci maddəsində (Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılır.) nəzərdə tutulmuş müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır.
- Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2015-ci il tarixli Fərmanı;
- Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli Fərmanı;
- Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi

və şəffaflığının təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 2015-ci il tarixli Fərmanı;

- Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2015-ci il tarixli Fərmanı;
- Qaradağ Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 03 iyun 2015ci il tarixli Sərəncamı;
- Mingəçevir Yüksək Texnologiyalar Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2015-ci il tarixli Fərmanı;
- Mingəçevir Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2015-ci il tarixli Sərəncamı;
- Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2015-ci il tarixli Sərəncamı;
- Əmanətlərin tam sığortalanması haqqında Azərbaycan Respublikasının 01 mart 2016-cı il tarixli Qanunu;
- "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 18 may 2017-ci il tarixli Qanunu;
- "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 16 fevral 2016-cı il tarixli Qanunu;
- "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 16 fevral 2016-cı il tarixli Qanunu.

Bu sənədlərdə qeyri-neft sektorunda iqtisadi aktivliyin artması ilə bağlı yeni tədbirlər nəzərdə tutulmuşdur. Hazırkı vəziyyətdə ən vacib məsələ əhalinin alıcılıq qabiliyyətinin gücləndirilməsi, sosial müdafiəsinin təmin olunması, manata etimadın artırılması və iqtisadi sabitliyin təmin edilməsidir.

Qəbul edilmiş sənədlərdə 7 il ərzində regionlar üzrə investisiya layihələrinin əmlak vergisindən tam, mənfəət vergisindən isə 50 faiz azad olunması nəzərdə tutulur. Bundan başqa, tədbirlər planında qeyri-neft sektorunun inkişafı ilə bağlı da bir sıra məsələlər öz əksini tapıb. Qeyri-neft sektorunun stimullaşdırılması üçün dövlət tərəfindən subsidiyalaşma mexanizmi hazırlanacaq. Əlavə olaraq, tədbirlər planında Azərbaycana məxsus milli brendlərin yaradılması da nəzərdə tutulur. "Gömrük tarifi haqqında" qanun və Vergi Məcəlləsinə edilən dəyişikliklərə görə, ölkə iqtisadiyyatı üzrə prioritet hesab olunan sahələrdə investisiya fəaliyyəti həyata keçirən hüquqi şəxslər və fərdi sahibkar tərəfindən investisiya təşviqi sənədi aldıqları andan müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumundan azad edilmişdir. Qəbul edilmiş bu dəyişikliklər sahibkarların xərclərinin azalmasına, yerli və xarici investisiyanın cəlb olunmasına, eyni zamanda həcminin artmasına gətirib çıxaracaq.

Bütün bunlarla yanaşı, aşağıdakı istiqamətlər üzrə stimullaşdırma tədbirlərinin həyata keçirilməsinə və təkmilləşdirilməsinə ehtiyac vardır:

- Qeyri-neft sektorunun davamlı inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına yönəlmiş innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul istehsalının inkişafı, habelə sahəvi klasterlərin yaradılması üçün münbit şəraitin yaradılması, eləcə də istehsalın

təşkili və inkişafına xarici investisiyaların yatırılmasının stimullaşdırılması məqsədi ilə prioritet sektorlar üzrə ixtisaslaşmış sənaye parklarının, texnoparkların, biznes inkubatorların, turizm və rekreasiya zonalarının və digər strukturların yaradılması və inkişaf etdirilməsinin dəstəklənməsi;

- Birbaşa xarici investisiyaların cəlb edilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübəni nəzərə alaraq investisiya layihələri üzrə güzəştlər sisteminin genişləndirilməsi;
- Ölkənin regionlarında, xüsusilə infrastrukturla lazımi səviyyədə təmin olunmamış ərazilərdə rəqabətqabiliyyətli məhsulların istehsalının inkişafı, bu prosesə xarici investisiyaların yatırılmasının stimullaşdırılması məqsədilə investisiya layihələrinin zəruri infrastrukturla təminat sisteminin daha da təkmilləşdirilməsi;
- Qarşılıqlı əlverişli şərtlər əsasında ictimai əhəmiyyətli layihələrin həyata keçirilməsində, xüsusilə infrastruktur təminatı sahəsində dövlət və özəl biznes arasında orta və uzun müddətli əməkdaşlığı təmin etmək, bu layihələrə xarici investorları cəlb etmək məqsədi ilə dövlət-özəl sektorlar arasında tərəfdaşlıq mexanizminin yaradılması;
- Xarici investorlar tərəfindən ölkədə istehsal olunan məhsullarda və göstərilən xidmətlərdə yerli komponentin (yerli xammal, komplektləşdirici hissələr və detallar, xidmətlər) artırılması üçün xarici investorlar və yerli istehsalçılar arasında kommersiya əlaqələrinin yaradılması məqsədilə təchizatın inkişaf proqramlarının təşkili.

# NƏTİCƏ

Bütün bunlara əsaslanaraq ölkə iqtisadiyyatının innovasiya amillərinə söykənən inkişaf strategiyasından irəli gələn ortamüddətli (ödənilən) dövlət innovasiya siyasətinin işlənib hazırlanması məqsədəuyğun hesab olunur.

Belə bir siyasətin formalaşdırılmasında aşağıdakıların nəzərə alınması vacibdir:

Azərbaycanda mükəmməl hesab edilə biləcək dövlət innovasiya siyasəti aparılmır, ancaq onun ayrı-ayrı elementlərindən istifadə olunur. Respublikamızda innovasiya fəaliyyətinin idarə edilməsi üzrə vahid dövlət orqanı yoxdur. Bu, innovasiya proseslərinin təşkilini ləngidir.

Ölkə iqtisadiyyatının qloballaşma dövründə inkişaf etdirilməsi üçün ölkəmizdə rəqabət qabiliyyətli məhsullar buraxılmasının həcminin artırılmasında, iqtisadi inkişafın və ölkə təhlükəsizliyinin təminində, əhalinin həyat şəraitinin daha dayaxşılaşdırılmasında innovasiya fəaliyyətinin prioritetliyinə istiqamətlənmiş dövlət siyasətinin qəbul edilməsi zəruridir.

Dövlət innovasiya siyasətinin əsas prinsiplərini ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilən innovasiya proqramlarının və layihələrinin maliyyələşdirilməsi, innovasiya infrastrukturunun formalaşması və innovasiya sahəsi üçün kadr hazırlığı təşkil edir.

İnnovasiya fəaliyyətinin inkişaf üçün münbit şərait yaradan hüquqi bazanı formalaşdırmadan ölkə iqtisadiyyatını innovasiyalı inkişaf yoluna çıxarmaq mümkün deyildir. Bunun əsasını isə innovasiya fəaliyyəti haqqında qanun təşkil edə bilər.

İnnovasiya fəaliyyəti haqqında qanunun daha da inkişaf etdirilməsi məqsədi ilə aşağıdakı reqlamentləşdirici qaydaları özündə əks etdirən normativ aktlar qəbul olunmalıdır:

- innovasiya layihələrinin müsabiqə yolu ilə seçilməsi və büdcədən kreditləşdirilməsi;
- innovasiya fəaliyyəti göstərən subyektlərə subsidasiyalarm ayrılması və natura qrantlarının verilməsi;
- dövlət əhəmiyyətli innovasiya layihələrinin dövlət ekspertizasından keçirilməsinin təşkili;
- texnoparklarm və texnoloji biznes-inkubatorların formalaşdırılması və lazımı ehtiyatlarla təmin olunması;
- innovasiya məhsullarının yaradılması və sairə üçün dövlət sifarişlərinin yerləşdirilməsi.

Azərbaycanda elmi-texniki fəaliyyət dairələri bu vaxtadək cəmiyyətin sosial-iqtisadi inkişafının baza elementinə çevrilməmişdir. Ona görə də elmi-texnoloji inkişafın strateji istiqamətlərinin reallaşdırılması məqsədi ilə ölkəmizdə elm və texnikanın prioritet inkişaf istiqamətləri nəzərdən keçirilib seçilməlidir, onların inkişafına mane olan amillər üzə çıxarılmalıdır, qarşıya çıxan problemlərin həlli mexanizmləri müəyyən olunmalıdır.

İqtisadi baxımdan inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda innovasiya fəaliyyətinin inkişaf şərtləri prinsipial fərqlərə malikdir. Respublikada innovasiya fəaliyyəti əsasən birbaşa xarici investisiyanın cəlb olunması yolu ilə göstərilir. Birbaşa

investisiya ilə yanaşı ölkəmizə yeni texenologiya, yeni meneccent üsulları və mexanizmləri də gətirilir. Əksər təşkilatlardan ötrü xarici texnalogiya və lisenziyaların alınması böyük stimuldur, çünki onlar bu yolla xarici bazara çıxmaq imkanı qazanırlar.

Bununla yanaşı, ölkəyə nəzarətsiz texnologiya axını ölkə sənayesinin xarici işləmələrdən texnoloji asılılığına real təhlükə yaradaraq milli elm və istehsalat kompleksinin inkişafının qarşısını ala bilər.

Respublikamızın texnoloji təhlükəsizliyinin təmin olunması baxımından texnologiyalar transferi mərkəzinin yaradılmasına ehtiyac vardır. Texnologiyalar transferi mərkəzinin başlıca vəzifələri aşağıdakılardan ibarət olmalıdır:

- texnologiyaların, məhsulların və partnyorlarm axtarışı;
- elmi-texnoloji işləmələrin və intellektual məhsulların bazara çıxarılması;
- informasiya-analitik xidmətlər göstərilməsi:
- yüksək texnologiyalar sahəsində informasiya və informasiya-analitik işlərin yerinə yetirilməsi;
- yeni, mütərəqqi texnologiyalar haqqında informasiya bazasının yaradılması və aktual vəziyyətdə saxlanması;
- elm və texnikanın ayrı-ayrı sahələri üzrə toplanmış innovasiya layihələrinin ekspertizadan keçirilməsi və təkliflər, rəylər hazırlanması.
- texnoloji innovasiyalar və intelluktual məhsullar bazarında marketinq tədqiqatlarının aparılması:
- intellektual məhsulların istehsalçıları və istehlakçıları (ölkədaxili və xaricibazarlarda) bazarının tədqiqi;
- yüksək texnoloji məhsullar bazarının tədqiqi;
- elmi-texnoloji istiqamətlərin cari vəziyyətinin və inkişaf perspektivlərinin müəyyənləşdirilməsi və dünya səviyyəsi ilə tutuşdurulub qiymətləndirilməsi.

Azərbaycan Respublikasının dövlət büdcəsinin imkanlarının məhdud olduğu (dövlət büdcəsindən hər il elmə ayrılan vəsaitlərin həcmi ÜDM-in 0,2%-dən çox olmur) bir şəraitdə fundamental və tətbiqi xarakterli elmi-tədqiqat işlərinə ayrılmış vəsaitlərin müəyyən bir hissəsini elmi-texnoloji işləmələrin nəticələrinin istehsalatda tətbiq olunmasına və seriyalı məhsullar istehsalının təşkilinə yönəltmək mümkün deyildir. Ona görə də hətta prespektivli elmi-texnoloji nəticələr kağız üzərində qalır, istehsalata çatdırıla bilmir. Bununla əlaqədar olaraq Respublika büdcəsində elmi-texnoloji inkişafa yönədilməsi nəzərdə tutulan vəsaitlərin həcminin artırılaraq heç olmasa ÜDM-in 1%-i həddinə çatdırılması vacibdir. Bundan həm də elmi-texnoloji innovasiyaların istehsalatda tətbiqinə yönəldilən səylərin stimullaşdırılması məqsədilə istifadə etmək olar. Prespektivli elmi-texnoloji işləmələrin başa çatdırılması və bazara yönəldilməsi məqsədi ilə dövlət və qeyri-dövlət regional innovasiya fondları və mərkəzləri şəbəkəsini yaratmaq və onların maliyyələşdirilməsinə büdcədənkənar vəsaitlərin daha geniş cəlb olunması vacibdir.

Respublikamızda bu vaxta qədər innovasiya sahəsi üçün kadrların hazırlanması sistemi təşkil olunmamışdır. Bunun başlıca səbəblərinə aiddir: alitəhsil sisteminin tətbiqi elmlər və istehsalat ilə əlaqələrinin həddindən çox zəif olması; innovasiya üzrə tədris proqramlarının, Azərbaycan dilində innovasiyaya aid dərsliklərin və dərs vəsaitlərinin mövcud olmaması; təhsil üzrə dövlət standartının və eləcə də Azərbaycan Respublikasının mükəmməl təhsil qanununun olmaması aid edilə bilər.

Azərbaycanda yaranmış texnoloji geriliyi aradan qaldırmaq və iqtisadiyyatda mühüm struktur dəyişikliklərinə nail olmaq üçün böyük əhəmiyyət kəsb edən problemlərdən biri də elmin aparıcı sahələrində çalışmaq üçün milli elmi kadrların hazırlanmasının prioritet kimi seçilməsinin və dövlət tərəfindən dəstəklənməsinin təmin olunmasıdır. Mövcud olan kadr potensialını, maddi-texniki bazanı, innovasiyalara əsaslanan inkişaf imkanlarını nəzərə alaraq ölkəmizin təhsil ocaqlarının elmi mərkəzlər, elmi-tədqiqat institutları ilə inteqrasiya olunmasına real şərait yaradılmalıdır. Ancaq bu yolla elmi-təhsil kompleksləri yaradıla və elmin prioritet istiqamətləri üzrə tədqiqatlar aparıb istehsalatda tətbiq oluna bilər.

İnnovasiya sahələrində çalışmaq üçün lazım olan mütəxəssislərin hazırlanması məqsədi ilə kompleks tədris proqramları hazırlanmalıdır. Bu cür proqramlar perspektivli innovasiya layihələrinin həyata keçirilməsi üzrə menecerlərin, innovasiya müəssisələri üçün mühəndislərin, texniklərin, texnoloqlarm və digər mütəxəssislərin hazırlanmasına və yenidən hazırlanmasına yönəldilməlidir.

Bizə elə gəlir ki, yuxarıda sadalanmış tədbirlər kompleksi ölkəmizdə innovasiya təşkilatlarının uğurlu fəaliyyəti üçün vacib olan münbit iqtisadi mühitin yaranmasına gətirib çıxaracaqdır.



**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi**
**İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu**

*Həsən Bəy Zərdabi Prospekti, 88a, AZ1011, Bakı şəhəri, Azərbaycan Respublikası,*
***Tel.:** +99412 4308933, **Faks:** +99412 4300215,*
***İnternet səhifə:** www.ier.az*